AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

29 mart 2017-ci il № 21-24 (9115) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### RO-PAX TİPLİ GƏMİ-BƏRƏNİN İLK POLAD LÖVHƏSİNİN KƏSİLMƏSİ MƏRASİMİ KEÇİRİLİB



*Martın 16-da Bakı Gəmiqayırma Zavodunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin ötən ilin oktyabrında etdiyi sifarişə uyğun 2 ədəd unikal Ro-Pax tipli gəmi-bərənin ilk polad lövhəsinin kəsilməsi mərasimi keçirilib.*

Səh. 2

### 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



*XX əsrdə azərbaycanlılar müntəzəm olaraq erməni terroruna, erməni soyqırımına məruz qalmışlar. 1828-ci ildə Türkmənçay müqaviləsindən sonra zorla ikiyə bölünmüş Azərbaycanın şimalına, yəni Rusiyaya birləşdirilmiş ərazisinə İrandan, Türkiyədən və başqa ölkələrdən erməni ailələr köçürüldü.*

Səh. 3

### GƏMİÇİLİYİN ZAVODLARINDA XARİCİ ÖLKƏLƏRİN GƏMİLƏRİ DƏ TƏMİR OLUNUR



***Azərbaycanın gəmi təmiri zavodlarında xarici ölkələrin gəmiləri də təmir olunur. Hazırda "Zığ" Gəmi Təmiri Zavodunda Belçikanın "Jan De Nul" şirkətinə məxsus "Vesalius" gəmisinin bərpası işləri həyata keçirilir.***

1980-ci ildə istismara verilən gəmi müvəqqəti olaraq Qazaxıstan Respublikasının bayrağı altında üzür.

Səh. 4

### İKİNCİ DAYAQ BLOKU DƏNİZƏ YOLA SALINIB



***"Şahdəniz Mərhələ 2" platformalarının ikinci dayaq bloku dənizə yola salınıb.***

Şahdəniz konsorsiumundan bildirilib ki, Yaşayış Blokları və Texnoloji Təchizat (YBTT) platformasının dayaq bloku qrafiki qabaqlayaraq martın 15-də Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodundan (BDÖZ) Xəzər dənizindəki "Şahdəniz" müqavilə sahəsinə yola salınıb.

Səh. 5

### ŞİRİN SU EHTİYATLARIMIZIN 70 FAİZİ ÖLKƏ HÜDUDLARINDAN KƏNARDA FORMALAŞIR



***Azərbaycanın şirin su ehtiyatlarının 70 faizi ölkə hüdudlarından kənarda formalaşır.***

Bunu martın 15-də Bakıda keçirilən "Su nəinki həyat mənbəyidir, hətta həyatın özüdür" devizi altında I Bakı Beynəlxalq Su Həftəsi çərçivəsində "Su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit" mövzusunda təşkil olunan beynəlxalq elmi-praktik konfransda "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov bildirib.

Səh. 6

### IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ İLK BİLETLƏRİ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ VƏ XANIMI MEHRİBAN ƏLİYEVAYA TƏQDİM OLUNUB

BAKU 2017
4th Islamic Solidarity Games

***"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasiminə 55 gün qaldığı vaxtda – martın 18-də Oyunların ilk biletləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və xanımı, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya təqdim olunub.***

Səh. 8

# PREZİDENT İLHAM ƏLİYEV: "HİNDİSTANDAN ŞİMALİ AVROPAYA YÜKLƏRİN İNDİKİ 40-45 GÜN ƏVƏZİNƏ 14 GÜNƏ DAŞINMASINA İMKAN VERƏN YENİ MARŞRUT AÇACAĞIQ"

***Azərbaycan vasitəsilə Çindən Avropaya açılan dəhliz yüklərin daşınması vaxtını iki dəfə azaldır.***

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Parisdə Fransa Şirkətlər Hərəkatının (MEDEF) biznes şurasının üzvləri ilə görüşdə səsləndirib.

"Bizim diqqət yetirdiyimiz başqa bir strateji istiqamət Azərbaycanda nəqliyyat qovşağının yaradılmasıdır. Bizim coğrafi mövqeyimiz əlverişlidir. Biz Asiya ilə Avropanın arasında yerləşirik və artıq sahib olduğumuz müasir nəqliyyat infrastrukturu ilə böyük maraq cəlb edirik. Bizim hər növ təyyarə, o cümlədən ən böyük yük təyyarələri qəbul edə bilən 6 beynəlxalq hava limanımız var. Biz artıq region üçün hava nəqliyyatı ilə yükdaşımalar qovşağına çevrilmişik. Bizim bütün qonşu ölkələrlə dəmir yolu əlaqələrimiz var. Azərbaycanın Gürcüstan vasitəsilə Türkiyə ilə dəmir yolu əlaqəsi bu il yaradılacaq. Bu, Xəzər dənizi, Azərbaycan vasitəsilə Çindən Avropaya dəhliz açır. Bu, yüklərin daşınması vaxtını iki dəfə azaldır. İlk sınaq qatarı artıq bizim ərazimizdən keçib. Ötən il biz, həmçinin Hindistandan Pakistan, Fars körfəzi, İran, Azərbaycan, Rusiya, Şimali Avropaya uzanan Cənub-Şimal nəqliyyat dəhlizinin yaradılmasına çoxlu investisiya yatırmaqla, bizi İranla birləşdirən dəmir yolu xəttinin çatışmayan hissəsini tamamlamışıq", - deyə Prezident İlham Əliyev qeyd edib.

Ölkə başçısı bildirib ki, Azərbaycanda bir neçə mühüm beynəlxalq toplantı və tədbir təşkil edilib və üzərimizə düşən hər şeyi etmişik. Beləliklə, bu dəhlizin çatışmayan hissəsi tikilən kimi Hindistandan Şimali Avropaya yüklərin indiki 40-45 gün əvəzinə 14 günə daşınmasına imkan verən yeni marşrut açacağıq. Şimaldan Cənuba, Şərqdən Qərbə olan bu dəhlizlərin hər ikisi təkcə coğrafi mövqeyimiz sayəsində deyil, bizim siyasətimiz sayəsində Azərbaycan ərazisindən keçir.

# KOLUMBİYA SENATI XOCALI SOYQIRIMININ 25-Cİ İLDÖNÜMÜ İLƏ BAĞLI QƏRARNAMƏ QƏBUL EDİB

***Kolumbiya Respublikasının Senatı Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı qərarnamə qəbul edib.***

Azərbaycanın bu ölkədəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, Kolumbiya Senatının vitse-prezidentinin, xarici əlaqələr və milli müdafiə komissiyasının prezidentinin, eləcə də senatorların imzaladığı bu qərarnamə Senat tərəfindən Azərbaycan Respublikasının Kolumbiyadakı diplomatik nümayəndəliyinin rəhbəri Ramil Fərzəliyevə təqdim edilib.

Sənəddə bildirilir ki, Senat üzvləri Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı bu faciəvi günün yüzlərlə qurbanının xatirəsini anaraq, Azərbaycan xalqı ilə həmrəyliyini bildirir.

Qərarnamədə 25 il əvvəl - 1992-ci il fevralın 26-da Ermənistan qoşunları və Dağlıq Qarabağdakı separatçılar tərəfindən yüzlərlə azərbaycanlı qadının, uşağın və qocanın qətl edilməsi ilə bağlı şiddətli faktların dünya tarixində bir daha təkrarlanmamasının vacibliyi qeyd olunur.



Honorable Senado de la República
Comisión de Relaciones Exteriores
Constancia 001 de 2017

Como Presidente de la Comisión de Relaciones Exteriores y Defensa Nacional del Senado de la República de Colombia, junto con los demás Senadores abajo firmantes, nos solidarizamos con el pueblo de la República de Azerbaiyán con motivo de la conmemoración de los 25 años del genocidio JODYALY en memoria de los centenares de vidas que se perdieron ese fatídico día.

El pueblo colombiano entiende perfectamente lo que significa la pérdida de vidas como producto de guerras sin sentido, motivo por el cual celebramos que nuestro gobierno haya llegado a un Acuerdo para la Terminación del Conflicto, considerando el Derecho a la Vida, como el principal propósito para resolver las disputas mediante el diálogo, por lo cual trasmitimos nuestro más profundo deseo de que el pueblo de Azerbaiyán y Armenia puedan resolver el conflicto mediante un acuerdo pacífico.

Hechos violentos como los ocurridos hace 25 años en ese fatídico 26 de febrero de 1992 cuando tropas de la República de Armenia y separatistas en Nagorno Karabaj cegaron la vida de centenares de mujeres, niños, ancianos azerbaiyanos, no deben tener cabida a un capítulo más en la historia del mundo.

Reconocemos los esfuerzos que ha realizado el pueblo de Azerbaiyán para alcanzar una paz negociada con el pueblo de Armenia, acudiendo siempre a las instancias internacionales como garantía de salvaguardar siempre los Derechos Humanos, el Derecho Internacional Humanitario y el Derecho a la Integridad Territorial en todas sus acciones.

En ese sentido como Representantes del Senado de Colombia, hacemos un llamado de la manera más respetuosa al gobierno de Armenia, que, mediante la demostración de hechos concretos, de señales de su buena intención y disposición para alcanzar un acuerdo de paz definitivo, que resuelva de manera pacífica el conflicto generado debido a la ocupación arbitraria de más del 20% del territorio azerbaiyano, dando cumplimiento a:

Las resoluciones 822, 853, 874, 884 del Consejo de Seguridad de la ONU, donde se establece el retiro de las Tropas de Armenia de los territorios de Azerbaiyán incluyendo Nagorno Karabaj.

Para finalizar solo nos resta desear que estas dos Naciones encuentren el camino de la reconciliación, ya que siempre traerá mayor desarrollo para nuestros pueblos la Paz que la [illegible]

Con esta constancia, ratificamos nuestro respaldo al pueblo de Azerbaiyán.

Como constancia y certificación se expide en Bogotá D.C., a los veinte (20) días del mes de Febrero del año dos mil diecisiete (2017).

Jaime Enrique Durán Barrera
Presidente Comisión de Relaciones Exteriores

Daira de Jesús Galvis Méndez
Vicepresidenta del Senado de la República

Teresita García Romero
Senadora

Maritza Martínez Aristizabal
Senadora

Diego Alejandro González González
Secretario General Comisión de Relaciones Exteriores



Kolumbiya xalqının da mənasız müharibədən uzun illər əziyyət çəkdiyi bildirilib, Azərbaycan və Ermənistan xalqlarının da münaqişəni sülh razılaşması ilə həllinə dair Kolumbiyanın arzusu ifadə edilir.

Qərarnamədə BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrini yerinə yetirərək Ermənistan qoşunlarının Dağlıq Qarabağ da daxil olmaqla işğal olunmuş Azərbaycan ərazilərindən çəkilməsi ilə bağlı Ermənistana çağırış edilir.

Azərbaycan xalqının daim beynəlxalq instansiyalara müraciət edərək insan haqları, beynəlxalq humanitar haqlar və ərazi bütövlüyü hüququnun qorunması zəmanəti ilə sülhə nail olmaq üçün Ermənistan xalqı ilə danışıqların aparılması üçün göstərdiyi səylərinin alqışlandığı qərarnamədə bildirilir. Bu qərarnamə ilə Azərbaycan xalqına Kolumbiya Senatının dəstəyinin ifadə edildiyi göstərilir.

Ramil Fərzəliyev ədaləti dəstəklədiyinə, Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtirama və münaqişədən əziyyət çəkən Azərbaycan xalqına göstərilən dəstəyə görə xalqımız və hökumətimiz adından Kolumbiya Senatına təşəkkür edib.

Qeyd edək ki, Kolumbiya Senatında 2012-ci ildə də "Azərbaycan Respublikası ərazisinin işğal edilməsi" barədə qərar qəbul edilib.

# QAZAXISTANIN KURIK LİMANINDAN AZƏRBAYCANA İLK YÜK GÖNDƏRİLİB

***Martın 24-də Kurık limanından Azərbaycana ilk yük yola salınıb. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Bərdə" gəmi-bərəsi ilə göndərilən vaqonlar martın 25-də Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çatıb.***

Kurik limanının rəhbərliyinin də yaxından izlədiyi "Bərdə" bərəsinin yanalma əməliyyatı və vaqonların gəminin göyərtəsinə yüklənməsi prosesi uğurla həyata keçirilib.

Ümumi sahəsi 40 hektar olan Kurık limanı əlverişli coğrafi mövqeyə malikdir. Ərazisində suyun dərinliyi limandan ən müxtəlif təyinatlı yüklərin yola salınması və qəbuluna tam imkan verir. Kompleksin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzərində yerləşməsi sözügedən istiqamətdə artan yük həcmlərinin qarşılanmasında mühüm əhəmiyyət kəsb edir.

Gələcəkdə Kurik bərə kompleksinin yükdaşımalarda rolunun artacağı gözlənilir. Bunun üçün ərazidə infrastruktur işləri davam etdirilir. Hazırda daha bir yanalma körpüsünün tikintisi işləri aparılır. Həmin körpü avtomobil daşıyan gəmilər (Ro-Ro/ Ro-Pax) üçün yeni imkanlar açacaq.

Bu günə kimi Qazaxıstandan tranzit yükdaşımalar yalnız Aktau limanı ilə həyata keçirilirdi. Aktau limanının yükaşırma imkanlarının məhdud olması, əlverişsiz coğrafi şəraiti (küləklərin birbaşa təsirinə məruz qalması) rentabelliyə mənfi təsir göstərirdi. Bu səbəbdən Kurık bərə kompleksinin istifadəyə verilməsi Azərbaycan üçün də əhəmiyyətli sayılır. Yeni kompleks Aktau ilə müqayisədə Bakı Limanına daha yaxın məsafədə yerləşir. Belə ki, Kurıkdan Bakıya təxminən 18, Aktaudan Bakıya isə 22 saatlıq yol var.

Limanın tikintisində Azərbaycan dənizçiləri və Bakı Beynəxalq Dəniz Ticarət Limanının təcrübəsi əsas götürülüb. Kurikdən ilk yola salınan gəmi də ölkəmizə məxsus olub. 2016-cı il dekabrın 7-də sınaq mərhələsində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Şahdağ" gəmi-bərəsindən istifadə edilib.













Xatırladaq ki, gəmiçilik Xəzərdə yeganə bərə operatoru kimi fəaliyyət göstərir. Hazırda 13 gəmi-bərə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımalara cəlb olunub. Rəqabətədavamlı xidmət göstərmək üçün istənilən gəmiçilik şirkəti kimi, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi də donanmasında gəmi-bərələrinin sayını artırmağa xüsusi önəm verir. Bu məqsədlə gəmiçilik Bakı Gəmiqayırma Zavodunda 2 unikal Ro-Pax tipli gəmi-bərənin tikintisi barədə sifariş yerləşdirib. Bununla da Şərq-Qərb və əks istiqamətdə artması gözlənilən yüklərin daşınması maneəsiz həyata keçiriləcək. Bərələrin sayının artırılması Azərbaycanın regionda nəqliyyat-logistika qovşağına çevrilməsi, ölkənin tranzit potensialının gücləndirilməsi üçün də çox böyük əhəmiyyətə malikdir.

# RO-PAX TİPLİ GƏMİ-BƏRƏNİN İLK POLAD LÖVHƏSİNİN KƏSİLMƏSİ MƏRASİMİ KEÇİRİLİB








***Martın 16-da Bakı Gəmiqayırma Zavodunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin ötən ilin oktyabrında etdiyi sifarişə uyğun 2 ədəd unikal Ro-Pax tipli gəmi-bərənin ilk polad lövhəsinin kəsilməsi mərasimi keçirilib.***

Tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayev, Bakı Gəmiqayırma Zavodunun əsas səhmdarı SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, digər rəsmi şəxslər və qonaqlar iştirak ediblər.

Mərasimdə çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın tranzit potensialından və əlverişli coğrafi mövqeyindən tam faydalanmaq üçün ciddi islahatların və irimiqyaslı işlərin aparıldığını bildirib. Nazir qeyd edib ki, Xəzər hövzəsində ən müasir yükaşırma müəssisəsi olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi, qərb istiqamətində dəmir yollarının yenidən qurulması kimi irimiqyaslı layihələr ölkəmizin regionda nəqliyyat-logistika qovşağına çevrilməsinə töhfə verəcək. Bununla bərabər, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası və yükdaşımalarda iştirak edən müvafiq qurumlar arasında işgüzar əməkdaşlıq nəticəsində Azərbaycan üzərindən tranzit yüklərin nəqli üçün əlverişli şərait yaradılıb, yükdaşıma prosedurları sadələşdirilib, tariflərdə şəffaflığa və endirimlərin tətbiqinə nail olunub. Bu işlərin nəticəsi olaraq tranzit yüklərin həcmində ciddi artım qeydə alınıb.

Şahin Mustafayev vurğulayıb ki, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun aparıcı üzvü olan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanması üçün yeni unikal Ro-Pax tipli gəmi-bərələrin tikintisi ölkəmizin tranzit yükdaşımalar sahəsində həyata keçirdiyi strateji siyasətin məntiqi davamıdır. Belə ki, bu gəmilər Xəzər üzərindən artan vaqon və TIR-ların vaxtında və yüksək keyfiyyətlə nəqlinə imkan verəcək. Eyni zamanda, belə gəmilərin tikintisinin məhz Bakı Gəmiqayırma Zavodunda aparılması yerli gəmiqayırma təcrübəsinin daha da genişlənməsinə və Azərbaycan iqtisadiyyatının şaxələnməsinə xidmət edəcək. Bu layihənin icrasına ölkə başçısının böyük dəstək verdiyini diqqətə çatdıran nazir bildirib ki, məhz prezident İlham Əliyevin göstərişi ilə gəmi-bərələrin dəyərinin 30 faizi dövlət büdcəsi hesabına maliyyələşdiriləcək.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev isə çıxışında qeyd edib ki, Gəmiçilik bazarın tələbinə uyğun yeni gəmilərin tikintisini və donanmanın daim yenilənməsini xüsusi diqqətdə saxlayır. Sədr Xəzərdə yeganə bərə operatoru kimi fəaliyyət göstərən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" üçün bu gəmilərin tikintisinin əhəmiyyətini qeyd edib. Bildirib ki, Bakı-Tbilisi-Qars dəmiryolu istismara verildikdən sonra ölkəmiz üzərindən artması gözlənilən tranzit yüklərin vaxtında daşınmasında da mühüm rol oynayacaq.

Prezident İlham Əliyevin dəstəyi ilə hazırda gəmiçiliyin sürətli inkişaf dövrünü yaşadığını vurğulayan Rauf Vəliyev bildirib ki, mövcud infrastrukturun təkmilləşdirilməsi, regionda ən iri, müasir və böyük potensiala malik Bakı Gəmiqayırma Zavodunun tikilməsi də dövlət dəstəyinin bariz nümunəsidir.

Sədr xatırladıb ki, hazırda Gəmiçiliyin 13 bərəsi var və onların hamısı Xorvatiyada tikilib. Sevindirici haldır ki, belə gəmilər artıq ölkəmizdə inşa edilir.

"Həm vaqon, həm də TIR götürmək imkanına malik gəmilər konsepsiyasına görə də dünyanın ən gözəl üzən vasitələrindən biri olacaq. Bu cür gəminin ilk dəfə Bakı Gəmiqayırma Zavodunda və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC üçün tikilməsi çox əlamətdar hadisədir"- deyə Gəmiçiliyin rəhbəri əlavə edib.

Çıxışlardan sonra poladkəsmə qurğusu işə salınıb və gəmi-bərələrin inşasına başlandığını bildirən ilk polad lövhələri kəsilib.

Yeni gəmilərin konsepsiyası Odessa Dəniz Mühəndisliyi Bürosu ilə birgə hazırlanıb. Əvvəllər bu tip gəmi-bərələr xaricdə tikilirdi və onların Volqa-Don kanalından Azərbaycan ərazisinə maneəsiz daxil ola bilməsi üçün eni, uzunluğu, hündürlüyü azaldılırdı. Nəticədə isə sahə itkisinə yol verildiyindən yükdaşımaların həcmi azalırdı. İşin Bakı Gəmiqayırma Zavodunda həyata keçirilməsi sözügedən problemləri aradan qaldıracaq. Belə ki, unikal dizayna malik gəmilər texniki göstəricilərinə görə geniş imkanlara malik olacaq. Bu konsepsiya Xəzərdə mövcud vəziyyət, Gəmiçiliyin vaqon, TIR və sərnişin daşımaları üzrə tələbatı və gözləntiləri nəzərə alınmaqla ən optimal variant hesab olunur.

Yeni Ro-Pax/Bərə tipli gəmi ümumilikdə 100 sərnişin, 56 vaqon və ya 50 yük maşını tutmaq imkanına malik olacaq.

## GƏMİÇİLİK DÜNYANIN NÜFUZLU TƏSNİFAT CƏMİYYƏTLƏRİNDƏN OLAN ABS İLƏ ƏMƏKDAŞLIĞI DAVAM ETDİRƏCƏK



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin beynəlxalq miqyasda tanınmış şirkətlərlə əməkdaşlığı inkişaf etməkdədir. Bu sırada dünyanın ən nüfuzlu təsnifat cəmiyyətlərindən sayılan Amerika Gəmiçilik Bürosu (ABS) ilə iş birliyini xüsusi qeyd etmək olar.***

Martın 16-da ABS-in Türkiyə və Azərbaycan üzrə nümayəndələri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevlə görüşüblər.

Görüşdə Gəmiçiliklə birgə həyata keçirilən layihələrlə bağlı müzakirələr aparılıb. Gəmiçiliyin Təlim-Tədris Mərkəzinin yüksək standartlara cavab verdiyini xüsusi vurğulayan qonaqlar burada quraşdırılan müasir simulyatorların dənizçilərin peşəkarlıqlarının artırılmasında mühüm rol oynayacağına əminliyini ifadə ediblər.

Rauf Vəliyev Gəmiçiliyin fəaliyyət istiqamətləri, görülən işlər və qarşıda duran vəzifələr barədə qonaqlara ətraflı məlumat verib. Bildirib ki, istər donanmaların, istərsə də sahil təşkilatlarının işinin beynəlxalq standartlar səviyyəsində qurulması, mütəxəssislərin peşə hazırlığının artırılmasında xarici şirkətlərlə sıx əməkdaşlıq Gəmiçiliyin başlıca önəm verdiyi məsələlərdir.

ABS tərəfindən beynəlxalq standartlara uyğun sertifikatlar alan Gəmiçilik nüfuzlu təsnifat şirkəti ilə əməkdaşlığı bundan sonra da davam etdirəcək.

## ƏMİRABAD LİMANINDA BƏRƏ TERMİNALININ TİKİNTİSİNDƏ GƏMİÇİLƏRİMİZİN ZƏNGİN TƏCRÜBƏSİNDƏN FAYDALANACAQLAR






***Martın 9-da İran İslam Respublikasının Əmirabad Limanının nümayəndə heyəti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevlə görüşüb.***

İki qonşu və dost ölkə arasında münasibətlərin yüksək səviyyəsindən bəhs edən İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin müşaviri Əli Abbasi belə görüşlərin əlaqələrin möhkəmlənməsinə töhfə verdiyini bildirib.

Podratçı şirkətlərin nümayəndələrinin də iştirak etdiyi görüşdə Kamal Abdullahi təmsil etdiyi Əmirabad Limanında hazırda aparılan tikinti işləri haqqında məlumat verib. Limanda bərə terminalının da inşa edildiyini deyən qonaq tikinti işlərinin yaxın bir il ərzində başa çatacağını bildirib. Onun sözlərinə görə, limanda bərə terminalının fəaliyyətə başlaması gələcəkdə daşınacaq yüklərin həcminin artmasına səbəb olacaq. Qonaq Əmirabadda bərə terminalının tikintisi və bərə tipli gəmilərin idarə olunmasında azərbaycanlıların zəngin təcrübəsindən faydalanmaq istəklərini xüsusilə qeyd edib.

Gəmiçiliklə İran şirkətlərinin əlaqələrinə toxunan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev bu görüşün iqtisadi əməkdaşlıq üçün yeni imkanlar açacağına inamını ifadə edib. Bərə terminallarının tikintisində azərbaycanlı mütəxəssislərin zəngin təcrübəsi olduğunu bildirən Rauf Vəliyev Qazaxıstanın Kurık bərə kompleksinin inşasında da Gəmiçiliyin əməkdaşlarının təcrübəsindən yararlandıqlarını diqqətə çatdırıb. Söhbət zamanı, Xəzərdə yeganə bərə operatoru kimi fəaliyyət göstərən Gəmiçiliyin donanmasında hazırda 13 tip bərə, 2 tip Ro-Ro gəmilərinin olduğu qeyd edilib. Yaxın günlərdə isə yeni nəsil Ro-Pax tipli gəmilərin Bakı Gəmiqayırma Zavodunda metal kəsimi baş tutacaq. Gəmiçiliyin rəhbərinin sözlərinə görə, Əmirabad bərə terminalının işə salınması bir çox digər layihələrin də reallaşmasına imkan yaradacaq.

Görüşdə iranlı qonaqların Bakı Beynəlxqalq Dəniz Ticarəti Limanında bərələrlə tanışlığı, onların körpüyə yanalma, dəmir-yolu qatarlarının bərəyə daxil olması proseslərini daha yaxından izləməyə dair razılıq əldə olunub. Bundan başqa, danışıqlarda ikitərəfli əməkdaşlığın gələcək perspektivləri müzakirə edilib.

## HƏR BİR İSTİQRAZ SAHİBİNƏ 21 DOLLAR GƏLİR QAZANDIRIB




***SOCAR istiqrazının sahibləri gündəlik təxminən 0,14 dollar qazanır.***

Bu kağızlar üzrə marketmeyker fəaliyyətini həyata keçirən "PSG Kapital" investisiya şirkətindən bildirilib ki, SOCAR-ın daxili bazar üçün dollarla buraxdığı SOCAR istiqrazları öz sahiblərinə hər gün gəlir gətirir. Nominal qiyməti 1000 dollar olan istiqrazların illik gəlirliliyi 5 faiz və ya ildə 50 dollar təşkil edir. Faiz gəlirləri hər gün üçün hesablandığına görə, hər bir istiqraz sahibi gündə təxminən 0,14 dollar qazanır.

SOCAR istiqrazlarının buraxılışından təqribən 5 ay müddətin keçdiyini nəzərə alsaq, hər bir istiqraz öz sahibinə indiyədək 21 dollar gəlir qazandırıb. Bir ilin tamamında bu məbləğ 50 dollar olacaq. İstiqraz sahibləri bu pulun 12,5 dollarını yanvarın 17-də ilk faiz ödənişi zamanı alıblar. Gəlirlərin növbəti hissəsi isə aprelin 17-si, iyulun 17-si və oktyabrın 17-si tarixlərindəki faiz ödənişləri zamanı veriləcək.

Xatırladaq ki, SOCAR istiqrazları Azərbaycanın fond bazarında ən çox alınıb-satılan qiymətli kağızlardır. Belə ki, bu ilin ilk iki ayında birjada 29,4 milyon dollarlıq istiqraz alınıb satılıb ki, bu da ümumi istiqraz bazarının 76,2 faizi deməkdir. SOCAR istiqrazlarının buraxılmasından keçən müddət ərzində indiyədək 69,1 milyon dollarlıq istiqraz ticarəti edilib.

SOCAR istiqrazlarının satış qiyməti 1 007-1 008 dollara yüksəlib. Bu ilin ilk iki ayında birjada 29,4 milyon dollarlıq istiqraz alınıb- satılıb ki, bu da ümumi istiqraz bazarının 76,2 faizi deməkdir.

SOCAR istiqrazlarının buraxılmasından keçən müddət ərzində indiyədək 69,1 milyon dollarlıq istiqraz ticarəti edilib.

## GƏMİÇİLİK 3350 QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN AİLƏSİNİ BAYRAM SOVQATI İLƏ SEVİNDİRİB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC erməni təcavüzü nəticəsində doğma ocaqlarından didərgin düşmüş soydaşlarımıza diqqət və qayğısını heç vaxt əsirgəməyib.***

Dənizçilər həmişə olduğu kimi, bu il də Novruz bayramı ərəfəsində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin himayəsində olan məcburi köçkün ailələrinə baş çəkiblər. Əslən Xocalı, Kəlbəcər, Laçın, Ağdam və Şuşadan olan və Goranboy rayonu ərazisində müvəqqəti məskunlaşan 3350 qaçqın və məcburi köçkün ailəsinə zəruri ərzaq məhsullarından ibarət bayram sovqatı paylanılıb.

Gəmiçiliyin nümayəndələrinin məcburi köçkünlərlə görüşündə Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu siyasət nəticəsində qaçqın və məcburi köçkünlərin tezliklə yurd-yuvalarına qayıdacaqlarına inam ifadə edilib, bayram arzuları dilə gətirilib.

Torpaqlarımızın erməni işğalı nəticəsində ev-eşiyindən didərgin düşən həmvətənlərimiz daimi diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, dənizçilərə aydın səma altında uğurlu səfərlər arzulayıblar.

# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

## "BAKINI ERMƏNİLƏŞDİRMƏK, ONU ÖZ HƏQİQİ SAHİBLƏRİNDƏN TƏMİZLƏMƏK MƏNFUR DAŞNAK PROQRAMININ TƏRKİB HİSSƏLƏRİNDƏN BİRİ İDİ..."

***1918-ci ilin mart ayından etibarən əksinqilabi mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi həyata keçirilməyə başlandı... Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Zəngilanda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.***

***Heydər ƏLİYEV,***
***Ümummilli Lider***

***Erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Öz mənfur və təhlükəli siyasətlərini gerçəkləşdirmək üçün onlar müxtəlif üsul və vasitələrdən, tarixin saxtalaşdırılmasından, siyasi təxribatlardan istifadə etmiş, dövlət səviyyəsində davakar millətçiliyi, separatizmi və qonşu xalqlara qarşı təcavüzü dəstəkləmişlər. Bu məqsədlə Ermənistanda və ayrı-ayrı dövlətlərdə "milli-mədəni", dini, siyasi və hətta terorçu təşkilatlar qurmuş, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər etmişlər.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



XX əsrdə azərbaycanlılar müntəzəm olaraq erməni terroruna, erməni soyqırımına məruz qalmışlar. 1828-ci ildə Türkmənçay müqaviləsindən sonra zorla ikiyə bölünmüş Azərbaycanın şimalına, yəni Rusiyaya birləşdirilmiş ərazisinə İrandan, Türkiyədən və başqa ölkələrdən erməni ailələr köçürüldü. Qafqazın bəzi ərazilərində də haylara yer verildi, onlar üçün hər cür şərait yaradıldı.

Ermənilər yaşadıqları özgə ərazilərinə sahib olmağa daim can ataraq bu istiqamətdə məkrli siyasət yürütmüşlər. Bunun nəticəsidir ki, ermənilər 50-60 il bir ərazidə yaşayırlarsa, o yerlərə sahib olmağa çalışırlar. Bunun üçün planlar qurur, yerli əhalinin qılığına girir, onun qəlbinə yol tapır, tədricən adət-ənənəsinə, mədəniyyətinə, hətta mətbəxinə yiyələnməyə çalışırlar. Sonra da özlərini yaşadıqları yerlərin əsl sahibi kimi aparır, yerli əhalini öz tarixi torpağından, yurdundan sıxışdırıb çıxartmağa başlayırlar.

XIX əsrin axırlarında erməni millətçiləri özlərinin "Daşnaksütyun" partiyalarını yaratdılar. "Daşnaksütyun" partiyasının əsas məramı dənizdən-dənizə "böyük Ermənistan" yaratmaq idi. Türklərin və azərbaycanlıların torpaqlarında özlərinə yer eləmiş ermənilər xristian dövlətlərinə arxalanaraq yerli əhaliyə qarşı mübarizəyə başladılar.

1905-1907-ci illər birinci rus inqilabı dövründə çarizm öz hakimiyyətini qorumaq üçün milli ədavətləri qızışdırırdı. Bundan ermənilər yararlandılar və əsrlər boyu çörəyini yedikləri, suyunu içib, torpağında yaşadıqları azərbaycanlılara qarşı tarixdə görünməmiş qırğına başladılar. 1905-ci il hadisələrində ermənilər azərbaycanlıları qırırdı və bu vəziyyətə rus hakimiyyəti biganəliklə baxırdı. Ermənilər Bakıda, Şamaxıda, Gəncədə, Qubada, Lənkəranda, Qarabağda, Zəngəzurda və başqa yerlərdə qırğınlar törətmişdilər. Tarixi faktlar göstərir ki, ermənilər azərbaycanlıları çox böyük qəddarlıqla, özlərinə məxsus amansızlıqla öldürmüşlər.

Ermənilərin bu vəhşiliklərini öz gözləri ilə görmüş, dövrünün tanınmış ziyalısı Ə. Ağayev1906-cı ildə Gəncə məscidində çıxışında demişdi: "Yer üzündə Allahın yaratdığı nə qədər vəhşi və yırtıcı heyvan varsa, onlar başqa heyvanları parçalayırlar, amma həmcinslərinə toxunmazlar. Nə acıdır ki, vəhşi heyvanların yapmadıqlarını ermənilər yapırlar. Tarixdə bu naxoş hadisəyə bənzər heç bir hadisəyə rast gəlməmişik."

Ermənilər 1905-ci ildən daha ağır və daha genişmiqyaslı qırğınları 1918-ci ilin mart ayında törətmişlər.

Tariximizə 31 mart qırğını kimi daxil olmuş bu dəhşətli hadisə xalqımızın yaddaşına qanlı hərflərlə yazılmışdır. Əsrlər boyu azərbaycanlılara qarşı nifrət bəsləyən, millətimizin qanına susayan erməni cəlladları 1918-ci ildə Bakıda və Azərbaycanın bütün bölgələrində olmazın faciələr törədək kütləvi surətdə qırğına səbəb oldular. Daşnak-bolşevik xətti ilə həyata keçirilən bu soyqırımı Bakı Komissarlığının başçısı S. Şaumyanın ssenarisinə əsaslanmışdı. Azərbaycanda bolşevik hakimiyyətinin qərarlaşdırılması naminə yol verildiyi iddia edilən mart qırğını nəticəsində "böyük Ermənistan" xəstəliyinə tutulmuş ermənilər mənfur planlarının bir hissəsinin yerinə yetirilməsinə nail oldular. Məhz 1918-ci ilin 31 mart soyqırımı məkrli qonşularımızın 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan kütləvi şəkildə deportasiyası, 1990-cı il 20 Yanvar faciəsi və 1992-ci il Xocalı soyqırımının ilk addımları kimi səciyyələndirilə bilər.

Uzun bir dövr sovet tarixi ədəbiyyatında 31 mart qırğınına birtərəfli münasibət bəsləyərək baş verənləri vətəndaş müharibəsi, daşnak-Müsavat qarşıdurması şəklində qələmə verməyə çalışmışlar. Hətta soyqırıma məruz qalmış azərbaycanlılara onun tarixinə qara hərflərlə yazılmış hadisəni büsbütün unutdurmağa səy göstərilib. Azərbaycan müstəqillik qazandıqdan sonra bir çox məsələlər kimi 31 mart soyqırımı da öz əsl qiymətini tapdı. Həqiqətlər üzə çıxaraq bəlli oldu ki, 31 mart soyqırımı ermənilərin planlı şəkildə, ssenariyə uyğun həyata keçirdikləri bir hadisədir.

1917-ci il Oktyabr inqilabından sonra yaranmış Bakı Soveti S. Şaumyanın rəhbərliyi ilə fəaliyyət göstərdiyinə görə burada yerli əhalidən – azərbaycanlılardan çox az adam təmsil olunurdu. Bakı Sovetində cəmləşmiş daşnaklar və qeyri-millətlərin nümayəndələri Şaumyanın rəhbərliyi altında mart hadisələrinin səbəbkarları idilər. Bakı Sovetində milli ayrı-seçkilik kəskin surətdə hiss olunurdu.

Burada M.Ə.Rəsulzadənin bir fikrini xatırlatmaq yerinə düşər: "...1917-ci il inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə də muxtariyyət verəcəkdir. Lakin fevral inqilabından çox şey gözləyənlərin ümidini oktyabr çevrilişi puça çıxartdı. Oktyabr çevrilişinin gətirdiyi yeni qaydaların əyalətlərdə özünə yer etməsi üçün ağlasığmaz cinayətlərə əl atıldı. Bu hiylə və məkrlər öz təcəssümünü çox vaxt qanlı hadisələrdə tapdı."

1918-ci ilin martında Bakıda minlərlə günahsız soydaşımızın qəddarlıqla məhvinə səbəb olmuş qırğın da bu qanlı hadisələrdən ən böyüyü idi.

Bakı Soveti Bakını Azərbaycanın paytaxtı etmək "arzusunda olan" yerli əhaliyə dərs vermək üçün əlverişli məqamın yetişdiyini duymuşdu. S.Şaumyan və onun havadarlarının məkrli məqsədi Bakını ermənilləşdirmək, yerli əhalini buradan qovub çıxarmaq və beləliklə, "böyük Ermənistan"a yol açmaq idi. O vaxt Rusiya dövlətinin başçısı V. Leninə də ermənilər və onlara dəstək olanlar yalan məlumat verərək bildirmişdilər ki, guya Azərbaycan çox kiçik bir ərazidir, Bakı əhalisinin əksəriyyətini isə ermənilər, ruslar və başqa xalqlar təşkil edirlər. Bütün bunlar bir daha göstərir ki, bu təxribat planlı şəkildə qurulmuş və həyata keçirilmişdir. S.Şaumyan martın 15-də Bakı Sovetində çıxış edərək demişdir ki, "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca mərkəzinə və istehkamına çevrilməlidir." Ona görə də sovetin rəhbərliyi yerli əhalini "başa salmaq" üçün daşnaklarla sazişə girir.

Sənədlər göstərir ki, S. Şaumyan qarşıdakı hadisəyə əvvəlcədən hazırlıq görmüşdür. 1918-ci il martın 3-də Şaumyan Stalinə xüsusi xahiş məktubu göndərmişdir. Şaumyanın məktubunda Bakının sürətlə hərbləşməsi üçün vəsait göndərilməsi, Qafqaz ordusu hərbi inqilab komitəsinin Bakıda yerləşdirilməsi, hərbi donanmanın yenidən təşkilinə başlanması barədə ətraflı məlumat verilirdi. Məktubda əsas məsələ isə daşnak hərbi hissələrini daha çox silahlandırmaq idi. Şaumyan yazırdı: " Daşnaklar üçün top məsələsini, xahiş edirəm, elə rəsmiləşdirəsiniz ki, məsələnin qəti həlli burada məndən asılı olsun. Biz isə vəziyyətə görə burada həll edərik". Bəli, daşnak libasında olan Şaumyan Bakıda külli-ixtiyara sahib olmaq istəyirdi.

Martın 30-31-i və aprelin 1-də ermənilərin Bakıda törətdikləri qırğında təkcə 13 min azərbaycanlı öldürüldü. Belə dəhşətli soyqırımı Şamaxıda, Lənkəranda, Qubada, Qarabağda və başqa yerlərdə də olmuşdur.

Bu qırğınlar içərisində Şamaxı qırğını öz dəhşəti ilə fərqlənir. S.Şaumyanın göstərişi ilə Şamaxı qəzasına daşnak zabitləri T. Əmiryan, S.Lalayan, Avezisov və başqaları göndərilmişdi. Erməni silahılı quldur dəstələri qəzanın 40-a yaxın kəndini xarabazara çevirdi. Əliyalın əhali qılıncdan keçirildi.

Şamaxı faciəsini gözləri ilə görən M.Əzizbəyov hadisəni N.Nərimanova təsvir edərkən özünü saxlaya bilməmiş, göz yaşı tökmüşdür. M.Əzizbəyov demişdir ki, Əmiryanın və Lalayanın silahlı quldur dəstələri cinsinə və yaşına məhəl qoymadan azərbaycanlıları qətlə yetirmişlər. Azğınlaşmış daşnaklar insanları məscidə yığaraq, od vurub yandırmışdılar.

Mart qırğınının törədilməsində S.Şaumyanın böyük rolu olduğunu N.Nərimanov bildirdi. O, 1923-cü il dekabrın 24-də MK-ya göndərdiyi məktubunda yazırdı: "1918-ci ilin martında Bakıda daşnaklaşmış "bolşevik"lərin və vəhşiləşmiş daşnakların azğınlığı üç gün davam etmişdir. Daşnak dəstələri xeyli dinc azərbaycanlı ailəsini qarət etmiş və öldürmüşdür... Bu, Bakını erməniləşdirmək, onu öz həqiqi sahiblərindən təmizləmək, zəngin təbii sərvətləri ələ keçirmək kimi mənfur daşnak proqramının tərkib hissələrindən biri idi..."

Şaumyan təkcə Bakını deyil, bütün Azərbaycanı erməniləşdirməyə çalışırdı. Bunu Şaumyanın bütün türk dünyasının düşməni tayqulaq Androniklə əlaqə saxlaması da sübut edir.

1918-ci il iyulun 14-də Andronik Şaumyana yazırdı: "Hazırda Naxçıvan qəzasındayam... Türkiyə qoşunlarının Naxçıvan ərazisinə daxil olmasına mane olmağa çalışacağam. Cavab və sərəncam gözləyirəm. General-mayor Andronik".

Naxçıvanda və ətraf yerlərdə dəhşətlər törətmiş quldur Andronik bir qədər sonra bolşevik-daşnak Şaumyana yazırdı: " Culfa mənim əlimdədir. İstədiyiniz vaxt onu sizin sərəncamınıza verə bilərəm".

Şaumyan da cavabında yazmışdı: "Culfa, xalq qəhrəmanı (!) Andronikə. Sizin teleqramınızı aldım. Teleqramın tam mətnini Moskvada mərkəzi hökumətə çatdırdım. Sizin simanızda öz tərəfimizdən əsl xalq qəhrəmanını salamlayıram."

Bu teleqram bir daha göstərir ki, Şaumyan özü də tayqulaq Andronikdən geri qalmırdı...

Ermənilərin 1918-ci ildə Azərbaycanda törətdikləri faciələrə baxmayaraq, həmin il sentyabrın 15-də türk və Azərbaycan qoşunlarının birgə həmləsi ilə daşnak dəstələri məhv edildi və Azərbaycanın üçrəngli bayrağı Bakıda dalğalanmağa başladı.

***H. MƏMMƏDOVA***

# OMBUDSMAN 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ ƏLAQƏDAR BƏYANAT YAYIB

***Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra tarixi keçmişimizi daha yaxşı öyrənmək imkanı əldə olunub, uzun illər gizli qalan həqiqətlər tədricən üzə çıxıb, beləliklə, təhrif edilmiş hadisələr aşkarlıq müstəvisində daha aydın görünməkdədir. Xalqımıza qarşı zaman-zaman törədilmiş və beynəlxalq miqyasda heç vaxt tarixi qiymətini almamış soyqırımı hadisələri də bu qəbildəndir.***

Bu fikirlər Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 31 mart - Azərbaycanlıların Soyqırımı günü ilə əlaqədar dünya birliyinə, beynəlxalq təşkilatlara, ombudsmanlar institutlarına, diplomatik nümayəndəliklərə və digər qurumlara ünvanlanmış bəyanatında yer alır.

Bəyanatda deyilir: XIX əsrin əvvəllərindən başlayaraq, tarixi Azərbaycan torpaqları olan Qarabağa, Naxçıvana, Zəngəzura, İrəvan quberniyasına və digər bölgələrə İran və Türkiyədən minlərlə erməni ailəsi köçürülüb. Erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinin məqsədi soydaşlarımızı öz tarixi torpaqlarından qovmaq və bu ərazilərdə "Böyük Ermənistan" dövləti yaratmaq olub.

Sənəddə qeyd olunur ki, bu qanlı faciələrin ən dəhşətlisi 31 mart 1918-ci il tarixdə azərbaycanlılara qarşı törədilən soyqırımıdır və özünün ağır nəticələri ilə seçilir. 1918-ci ilin mart ayından etibarən erməni millətçiləri tərəfindən dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilib, insanlar diri-diri yandırılıb, nadir tarixi abidələr, xəstəxanalar, məktəblər, məscidlər dağıdılıb. Silahlı erməni-bolşevik birləşmələrinin Bakıda və digər yerlərdə martın 31-də və aprelin 1-2-də törətdiyi kütləvi qırğınlar nəticəsində yüz minlərlə azərbaycanlı, o cümlədən Bakı və ətraf kəndlərin 30 mindən çox sakini milli mənsubiyyətinə görə qəddarlıqla öldürülüb. Bu zaman ermənilər bir çox qədim binaları, o cümlədən dünya memarlığının incilərindən sayılan İsmailiyyə binasını, ziyarətgahları, məscidləri top atəşinə tutaraq dağıdıb, insanların meyitlərini yandırıblar.

Bəyanatda azərbaycanlıların soyqırımının əsasən Bakı, Şamaxı, Quba, Kürdəmir və Salyan qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan və Lənkəranda xüsusi qəddarlıqla həyata keçirildiyi və bunun ağır nəticələri barədə məlumat verilir. Qeyd olunur ki, ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında bu hadisələrə siyasi qiymət verilib və azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qalması ilk dəfə rəsmi surətdə bəyan edilib. Eyni zamanda, 31 mart - Azərbaycanlıların Soyqırımı Günü hər il ölkəmizdə dövlət səviyyəsində qeyd olunur.



"Son dövrdə Qubada 1918-ci il hadisələri zamanı ermənilərin törətdikləri kütləvi insan qətllərini aşkarlayan faktlar üzə çıxarılıb. Belə ki, tapılmış saysız-hesabsız insan sümükləri bu qırğınlar zamanı erməni qatillərinin vəhşiliyini və vandalizmini təsdiqləyən əyani dəlillərdir. Bu ərazidə on minlərlə insanın qətlə yetirilməsinin sübutu kimi və onların xatirəsinə ehtiram əlaməti olaraq Quba soyqırımı Memorial Kompleksi yaradılıb", - deyə bəyanatda vurğulanır.

Soyqırımı cinayətinin əlamətləri BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada müəyyən olunub. Ombudsmanın bəyanatında xatırladılır ki, konvensiyaya görə, soyqırımı hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən hərəkətlərdir. İnsanlıq əleyhinə cinayətin tərkibini təşkil edən və bu sənəddə göstərilən əməllərdən hər biri 1918-ci ilin mart hadisələri zamanı ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilib və hüquqi baxımdan soyqırımı kimi qiymətləndirilməlidir.

Bəyanatda daha sora deyilir: Ermənistan 1988-ci ildən başladığı növbəti təcavüz siyasəti nəticəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ ərazisini, eləcə də yeddi ətraf rayonu işğal edib, beləliklə ölkəmizin 20 faiz ərazisi zəbt olunub, bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, onların hüquqları kütləvi şəkildə kobudcasına pozulub. Bu işğal zamanı da erməni millətçiləri və terrorçuları Azərbaycanın Xocalı şəhərində, Kərkicahan, Malıbəyli, Quşçular, Qaradağlı, Ağdaban kəndlərində və digər yaşayış məntəqələrində soyqırımları törədiblər.

Zəbt olunmuş Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan ərazisinin ayrılmaz tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası ölkəmizin işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd məlum qətnamə qəbul edib. Digər beynəlxalq təşkilatların da bununla bağlı müvafiq qətnamə və qərarları var. Bu sənədlərdə Ermənistandan öz hərbi qüvvələrini işğal etdiyi Azərbaycan ərazilərindən çıxarması, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünün öz doğma torpaqlarına qayıtmasına imkan yaratması birmənalı olaraq tələb edilir. Lakin işğalçı ölkə buna məhəl qoymur, qeyri-konstruktiv mövqe nümayiş etdirərək, regionda sülhün bərqərar olmasına maneçilik törədir, atəşkəs rejimini mütəmadi olaraq pozur.

Bəyanatda buna misal olaraq, 2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsində törətdikləri təxribatlardan bəhs edilir. Qeyd olunur ki, cəbhəyanı bölgələrdə məskunlaşan mülki əhalinin yaşadığı çoxsaylı yaşayış məntəqələri, məktəblər və digər sosial obyektlər, habelə Azərbaycan Silahlı Qüvvələrinin qoşunlarının təmas xətti boyunca mövqeləri ağır artilleriyadan, iriçaplı silahlardan intensiv atəşə məruz qalıb. Nəticədə dinc əhali, o cümlədən uşaqlar, qadınlar və ahıllar həlak olub və ağır yaralanıblar. Beləliklə, beynəlxalq sənədlərin, o cümlədən Cenevrə konvensiyalarının müddəaları kobud şəkildə pozulub.

Sənəddə təəssüf hissi ilə vurğulanır ki, bütün bunlar XXI əsrdə, yüksək mədəni, iqtisadi inkişaf səviyyəsinə nail olmuş dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Hər bir vandalizm, separatçılıq, milliyyətçilik, terrorizm aktlarına hüquqi-siyasi qiymət verilmədikcə, bütün bəşəri cəmiyyət təhlükə qarşısında qalacaq.

Sənəddə Azərbaycan tərəfinin Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istiqamətdə göstərdiyi səylər diqqətə çatdırılır. Bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev hər zaman bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin, zəbt olunmuş torpaqlardan işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini qətiyyətlə vurğulayır. Son dövrlərdə dünya ictimaiyyəti Azərbaycanın haqlı mövqeyini getdikcə daha çox dəstəkləyir və problemin beynəlxalq hüquq normaları çərçivəsində dinc vasitələrlə həll edilməsində maraqlıdır. Artıq 14 dövlətin parlamentləri ermənilər tərəfindən 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımını beynəlxalq hüquq normaları müstəvisindən tanıyıb, habelə ABŞ-ın 21 ştatının qanunverici orqanlarında müvafiq qətnamələr qəbul edilib. Bununla belə 31 mart – Azərbaycanlıların soyqırımına beynəlxalq miqyasda hələ də hüquqi qiymət verilməyib.

Dünya birliyinə və mötəbər beynəlxalq qurumlara ünvanlanan bəyanat belə bir inamla yekunlaşır: Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə, insan hüquqlarının kütləvi şəkildə pozulmasına son qoyulacağına, uzun müddət davam edən bu münaqişənin sülh və danışıqlar yolu ilə aradan qaldırılmasına kömək göstəriləcəyinə əminliyimizi ifadə edirik. Beynəlxalq təşkilatları ikili standartlara yol vermədən haqlı mövqeyimizi dəstəkləməyi tələb edir, ədalətin tezliklə öz yerini tapacağına, insanlığa qarşı törədilən bu qatı cinayətin genosid aktı kimi beynəlxalq hüquqi qiymətini alacağına, cinayətkarların cəzasız qalmayacağına, soyqırımı törətmiş Ermənistana qarşı səlahiyyətli beynəlxalq qurumlar tərəfindən sanksiyaların tətbiq olunacağına, Azərbaycanın ərazi bütövlüyünün, bir milyon qaçqın və məcburi köçkün soydaşımızın kütləvi şəkildə pozulmuş hüquqlarının bərpa ediləcəyinə, əsir və girovların azad olunacağına inanırıq.

Bəyanat BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, UNESCO-ya, İslam Əməkdaşlıq Təşkilatına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

# ÜÇTƏRƏFLİ MEMORANDUM İMZALANIB

***"Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və "Özbəkistan Dəmir Yolları" ASC arasında üçtərəfli görüş keçirilib. Görüşdə tərəflər Azərbaycan və Özbəkistan ərazisindən əlavə həcmdə tranzit və idxal-ixrac daşımalarının cəlbində maraqlı olduqlarını ifadə ediblər. Aparılan müzakirələrin nəticəsində tərəflər arasında üçtərəfli memorandum imzalanıb.***











Hər iki ölkənin nümayəndələri həm Avropa, həm də Orta Asiya və Əfqanıstan istiqamətində yükdaşımaların həyata keçirilməsində özlərinin mövcud nəqliyyat infrastrukturundan yararlanmağın vacibliyini diqqətə çatdırıblar. "Özbəkistan Dəmir Yolları" ASC qeyd olunan dəhlizin məhsul idxalı və ixracı üçün geniş imkanlar açacağını vurğulayıb.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev bu istiqamətdə daşınan yüklər üçün Gəmiçiliyin su nəqliyyatı vasitələrini ayırmağa hazır olduğunu bildirib. "Azərbaycan Dəmir Yollar" QSC isə öz növbəsində hər iki istiqamətdə daşımalar üçün optimal şərait yaradacağını öhdəsinə götürüb. Sənədə görə, tərəflər marşrut üzrə daşınacaq potensial yükləri də müəyyənləşdiriblər.

Tərəflər marşrutun inkişafını təmin etmək üçün daimi fəaliyyət göstərən işçi qrupu yaradacaqlar. Qrupun əsas vəzifəsi yük bazarını hərtərəfli araşdırmaq, daşınma texnologiyasını öyrənmək, marketinq strategiyası hazırlayıb reallaşdırmaq, alternativ marşrutlar və nəqliyyat vasitələri ilə bazara rəqabətədavamlı logistik məhsul çıxarmaqdan ibarətdir. Logistik məhsulun təşviqi məqsədi ilə isə "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Özbəkistan Dəmir Yolları" ASC, həmçinin bu ölkənin aparıcı idxalçıları və ixracatçılarının iştirakı ilə aprelin 26-27-də Daşkənddə tədbir keçirilməsi nəzərdə tutulur.

# TƏMİRDƏN SONRA DA NEFTÇİLƏRƏ XİDMƏT EDƏCƏK









***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "MPK-460" sərnişin gəmisi "Bibiheybət" Gəmi Təmiri Zavodunda tərsanəyə qaldırılıb.***

Qısa vaxtda gəminin sükan-pər qurğusu açılıb, pərvanələr balanslaşdırılıb, lövbər və zəncirləri rənglənərək yerinə yığılıb. Hazırda gəminin gövdəsi pasdan təmizlənir. İşlərin yekununda isə uzunluğu 34, eni 7 metr olan gəminin bütün sualtı hissəsi rənglənəcək.

Qeyd edək ki, 1985-ci ildən Xəzər Dəniz Neft Donanmasında istismar edilən 66 sərnişin tutumuna malik gəminin maksimal sürəti 11-12 üzeldir. Neftçilərin və çox da ağır olmayan yüklərin Neft Daşları və platformalara daşınmasını həyata keçirən gəminin yaxşı manevr qabiliyyəti estakadaların arasında effektiv idarəsinə imkan verir.

# GƏMİÇİLİYİN ZAVODLARINDA XARİCİ ÖLKƏLƏRİN GƏMİLƏRİ DƏ TƏMİR OLUNUR

***Azərbaycanın gəmi təmiri zavodlarında xarici ölkələrin gəmiləri də təmir olunur. Hazırda "Zığ" Gəmi Təmiri Zavodunda Belçikanın "Jan De Nul" şirkətinə məxsus "Vesalius" gəmisinin bərpası işləri həyata keçirilir.***

1980-ci ildə istismara verilən gəmi müvəqqəti olaraq Qazaxıstan Respublikasının bayrağı altında üzür. Uzunluğu 90, eni 17, hündürlüyü 5 metr və ümümi tutumu 1855 ton olan "Vesalius" dəniz dibinin dərinləşdirilməsi işləri ilə məşğul olur.

Artıq gəmidə tərsanə işləri başa çatıb. Yəni, bütün sualtı təmir işləri görülüb. Hazırda üzən vasitənin boru və nasosları təmizlənir, kranlarına platformalar qoyulur, mühərrikin hava sovurucusu təmir olunur. Bundan sonra isə gəminin ballast anbarlarından gedən boru sisteminin yerinin və qapıların dəyişdirilməsi, gəminin qazdığı torpaq və digər süxurları sovuran boruların yenisi ilə əvəz edilməsi nəzərdə tutulur.

İşin keyfiyyətinə xüsusi fikir verən gəmi təmirçiləri həm də "Vesalius"-u vaxtından 5 gün tez - martın sonlarında sifarişçiyə təhvil verməyi planlaşdırıblar. Sifarişçi də mühəndislik baxımından yüksək peşəkarlıq tələb edən mürəkkəb işlərin öhdəsindən məharətlə gələn təmirçilərimizin işindən razılığını gizlətmir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC regionda ən güclü gəmi təmiri bazasına malikdir. Həm "Bibiheybət", həm də "Zığ" gəmi təmiri zavodları mütəmadi olaraq xarici ölkələrdən sifarişlər alır. Əsasən AXDG-yə məxsus gəmilərin təmiri ilə məşğul olan zavodların xaricdən sifariş qəbul etməsi isə ölkəyə əlavə valyuta gətirilməsi baxımdan əhəmiyyətlidir.

Xatırladaq ki, təkcə ötən il "Zığ" Gəmi Təmiri Zavodunda təmir edilən 43 gəmidən 9-u xarici ölkələrə məxsus olub.













# SƏRNİŞİN GƏMİSİ İSTİSMARA QAYTARILIB






***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus "PSK-38" sərnişin gəmisi tərsanə təmirindən çıxıb.***

Gəminin sualtı hissəsi, mühərriklərin soyutma sistemləri təmir olunub. Eyni zamanda, gəminin val və sükan qurğusu, gövdə hissələrinin qalınlığı yoxlanılıb.

Gəmiçiliyin "Bibiheybət" Gəmi Təmir Zavodunda aparılan təmir işləri başa çatandan sonra Rusiya Dəniz Gəmiçiliyi Registrinin nümayəndələri tərəfindən 54 sərnişin tutumuna malik gəmi registr yoxlanışından keçirilib və daha bir il istismarına icazə verilib.

150 at gücünə malik mühərriklə təchiz olunması isə uzunluğu 29, eni 6.5 metr olan sərnişin gəmisinə sürətini 10 uzelə qədər artırmağa imkan verir.

# DƏNİZ NƏQLİYYATI İLƏ DAŞINAN YÜKLƏRİN HƏCMİ 50,5 FAİZ ARTIB



***Dəniz nəqliyyatı ilə 2017-ci ilin yanvar-fevral aylarında daşınmış yüklərin həcmi 1263,9 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 50,5 faiz artıb. Yüklərin 43,4 faizini neft yükləri təşkil edib.***

Dəniz limanlarında 1809,1 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 1720,5 min tonunu və ya 95,1 faizini tranzit yüklər təşkil edib. 2017-ci il mart ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 48,6 min ton idxal yükləri olub.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 23,8 faiz artaraq 2,6 min nəfər olub.

# TRANZİT DƏHLİZLƏRİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNUB

***Azərbaycanın iştirakı ilə tranzit dəhlizləri sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.***

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən bildirilib ki, müzakirələr Vyetnamın paytaxtı Hanoy şəhərində Avrasiya regionu üçün tranzit, ticarətin asanlaşdırılması və "2030-Davamlı İnkişaf Proqramı" sahələrində əməkdaşlığın gücləndirilməsi ilə bağlı keçirilən Yüksək Səviyyəli Toplantıda aparılıb.

Tədbirdə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Vyetnam hökumətinin nümayəndələri, BMT Baş Assambleyasının prezidenti, BMT İqtisadi və Sosial Şurasının sədri, Dənizə Çıxışı Olmayan Ölkələr Qrupunun rəhbəri, BMT baş katibinin müavini və ali nümayəndəsi, Dünya Gömrük Təşkilatının Baş katibi və digər rəsmi şəxslərin qatıldığı toplantının işi altı sessiya üzrə təşkil olunub.

Birinci sessiyada "2030-Davamlı İnkişaf Proqramı"nın tətbiqinin gücləndirilməsilə bağlı təqdimatlar keçirilib və müzakirələr aparılıb. Eyni zamanda,




Dünya Gömrük Təşkilatının baş katibi və Ticarət və İnkişaf üzrə BMT Konfransı baş katibinin məruzələri dinlənilib.

Toplantının ikinci sessiyasında tranzit infrastrukturunun inkişafı və tranzit dəhlizləri sahəsində əməkdaşlıq məsələləri üzrə müzakirələr aparılıb. Sessiyada çıxış edən ölkə nümayəndələri tranzit infrastrukturunun inkişafı və tranzit dəhlizlərində qarşılıqlı əməkdaşlıq məsələlərinə toxunub, dənizə çıxışı olmayan ölkələr üçün imkanların yaradılmasının vacibliyi haqqında fikir söyləyiblər. Eyni zamanda, TRASEKA Proqramı və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının nümayəndələri beynəlxalq təşkilatlar səviyyəsində, Monqolustan və Vyetnam hökumətinin nümayəndələri isə öz ölkələrində tranzit dəhlizləri ilə bağlı fikirlərini diqqətə çatdırıblar.

Növbəti sessiya isə beynəlxalq ticarət və ticarətin asanlaşdırılması sahəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı olub. Burada tranzit ölkələri arasında ticarət və ticarətin sadələşdirilməsinin təşviqi, o sıradan "Ticarətin asanlaşdırılması sazişi" müzakirə edilib və qabaqcıl təcrübələr paylaşılıb. Dünya Bankının rəhbərinin müavini və Dünya Ticarət Təşkilatının nümayəndələri artıq qüvvədə olan bu sazişin əhəmiyyəti barədə fikirlərini bölüşüblər. Sessiyada Əfqanıstan və Nepalın ticarət nazirləri də çıxış edərək ölkələrindəki çətinliklər, eləcə də müvafiq layihələrin həyata keçirilməsi üçün investisiyaların cəlb edilməsi məsələlərinə toxunublar.

Daha sonrakı sessiyada ikitərəfli, regional və qlobal səviyyədə tranzit üçün hüquqi çərçivə ilə bağlı əməkdaşlığın genişləndirilməsi ilə əlaqədar müzakirələr aparılıb, hüquqi çərçivələr, ikitərəfli sazişlər və beynəlxalq konvensiyalar barədə məlumat verilib və beynəlxalq alətlərdən istifadə etməklə tranzit üçün yaradılmış imkanlar qeyd edilib.

Toplantının beşinci sessiyası isə gömrük əməkdaşlığının tətbiqi üçün strategiyaların və təcrübələrin mübadiləsilə bağlı olub. Burada Dünya Gömrük Təşkilatının tranzitlə bağlı təlimatları bir daha nəzərdən keçirilib və ölkələrin bu sahədə əldə etdiyi təcrübələr paylaşılıb.

Öz növbəsində, Azərbaycan nümayəndə heyətinin rəhbəri ölkəmizdə tranzitin sadələşdirilməsi və inkişafı sahəsində göstərilən diqqət, ölkəmizin tranzit coğrafiyasında ən mühüm yerdə yerləşdiyi, Böyük İpək Yolunun Azərbaycan üzərindən keçdiyi, daha qısa və daha səmərəli dəhlizlərin mövcudluğu, tranzit daşımaları üçün mühüm əhəmiyyət kəsb edən müasir dəniz limanı və onun imkanlarından, eləcə də quru yolda olan infrastrukturdan bəhs edib, Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının fəaliyyəti barədə məlumat verib.

Bununla yanaşı, beynəlxalq tövsiyələrdə nəzərdə tutulan beynəlxalq alətlərə istinad edilərək, Azərbaycanda tranzitin inkişafı üçün 9 əsas istiqamət üzrə həyata keçirilən tədbirlər - infrastrukturun yaxşılaşdırılması, məlumat mübadiləsi, öncədən məlumatlandırma, zəmanət, gömrük təminat formaları, sadələşdirmə qaydaları və sair barədə məlumat verilib, Səlahiyyətli İqtisadi Operatorlar üçün münbit şəraitin yaradıldığı və bu məsələlərdə Azərbaycan Respublikasının təcrübə mübadiləsi və əməkdaşlıqda maraqlı olduğu diqqətə çatdırılıb.

Nəhayət, toplantının sonuncu sessiyasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi və həyata keçirilməsi vasitələrinin genişləndirilməsi məsələlərinə toxunulub. Tranzit ölkələri arasında ticarət potensialının və ümumi davamlı inkişafın sürətləndirilməsi məqsədilə əməkdaşlığın gücləndirilməsini dəstəkləmək üçün tərəfdaşlığın, beynəlxalq təşəbbüslərin və həyata keçirmə vasitələrinin gücləndirilməsi məsələləri müzakirə olunub və təcrübələr paylaşılıb.

Tədbirin sonunda isə müzakirə olunan məsələlər üzrə 2030-cu ilə qədər əhəmiyyət daşıyan və görüləcək tədbirlər haqda yekun sənəd qəbul edilib.

DƏNİZ



# AZƏRBAYCAN AVROPA VƏ ASİYANI BİRLƏŞDİRƏN NƏQLİYYAT DƏHLİZLƏRİNİN ƏSAS DAYAQ NÖQTƏLƏRİNDƏN BİRİNƏ ÇEVRİLİR

*Bakı yaxın gələcəkdə həm logistika-yükdaşıma, həm də ticarət üçün mühüm qovşağa çevriləcək. Bu fikir "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadovun martın 14-15-də Vyanaya işgüzar səfəri zamanı səsləndirilib.*

Səfər çərçivəsində T.Ziyadov martın 14-də Avstriya-Azərbaycan Ticarət Palatasında (ATAZ) ölkəmizin Avstriyadakı səfirliyinin dəstəyi ilə təşkil olunmuş işgüzar görüşdə iştirak edib. Tədbirdə logistika, yük daşımaları və nəqliyyat sahələrində fəaliyyət göstərən Avstriyanın bir sıra şirkətləri ilə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Görüşdə çıxış edən T.Ziyadov Bakı yaxınlığındakı Ələt qəsəbəsində yaradılan beynəlxalq ticarət limanının mühüm logistika və azad ticarət zonasına çevrilməsi üçün potensialı və üstünlükləri, burada reallaşdırılması planlaşdırılan layihələr barədə geniş məlumat verib, müvafiq sahələr üzrə ixtisaslaşan şirkətlərin bu layihələrdə iştirakı üçün yaradılan şərait barədə danışıb.




Həmin gün T.Ziyadov Dunay çayının sahilində yerləşən böyük logistika mərkəzi Vyana Limanını ziyarət edərək liman rəhbərliyi ilə görüşüb, limanın fəaliyyətinin təşkili ilə tanış olub.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Vyanada ATƏT-in iqtisadi məsələlər və ətraf mühit üzrə komitəsinin "Avrasiya nəqliyyatında tərəfdaşlıqların qurulması" mövzusunda iclasında iştirak edib. Baş direktor T. Ziyadov "Azərbaycanın qovşaq strategiyası və onun Avrasiyada nəqliyyat bağlılığının inkişafına təsiri" mövzusunda məruzə ilə çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı nəqliyyat layihələri, Cənubi Qafqazdan keçən nəqliyyat dəhlizləri, o cümlədən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu haqqında məlumat verib, Azərbaycanın həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin əsas dayaq nöqtələrindən birinə çevrildiyini vurğulayıb.

T.Ziyadov Xəzər dənizi hövzəsində ən böyük dəniz ticarət limanı olan Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, layihənin birinci mərhələsinin - bərə terminalının istifadəyə verilməsi barədə məlumat verib, bu ticarət limanının yaratdığı imkanlardan bəhs edib. O, Ələt qəsəbəsindəki Bakı Limanı ətrafında Azad Ticarət Zonasının (ATZ) yaradılmasının planlaşdırıldığını, ATZ-nin əsas məqsədlərindən birinin yerli və ölkəmizə idxal edilən xammalın emalı və beləliklə, yeni əlavə dəyərin yaradılmasından ibarət olduğunu bildirib. Bakı Limanının rəhbəri deyib ki, Ələt ATZ-də nəqliyyat və logistika infrastrukturunun, neft-kimya və əczaçılıq sahələrinin yaradılması, müxtəlif çeşiddə malların istehsalı, qablaşdırılması, markalanması və s. kimi işlərin həyata keçirilməsi planlaşdırılır. Hazırda ATZ üçün hüquqi bazanın yaradılması məqsədilə müvafiq sənədlərin hazırlanması işlərinin yekunlaşdığı vurğulanıb.

Sonda mövzu ilə bağlı suallar cavablandırılıb.

*Elgün Niftəli*

# 7 NEFT TANKERİ ALIB

*SOCAR-ın neft və neft məhsullarının satışı ilə məşğul olan "SOCAR Trading SA" şirkəti 7 ədəd neft tankeri alıb.*




Şirkətin baş icraçı direktoru Arzu Əzimov ötən ay imzalanan müqaviləyə əsasən, "SOCAR Trading SA"nın 2 ədəd 140 min ton tutumu olan "Suezmax" və 5 ədəd 80 min ton tutuma malik "Aframax" sinifli tanker əldə etdiyini deyib. Şirkət Aralıq və Xəzər dənizlərində özünün nəqliyyat potensialını genişləndirmək niyyətindədir.

Hazırda şirkətin donanmasında 5000-15000 ton arası tutuma malik 30 gəmisi var. Onların arasında neft tankerləri çoxluq təşkil edir.

Qeyd edək ki, mərkəzi ofisi Cenevrədə yerləşən "SOCAR Trading" Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən neft və digər məhsulların bazarlarda satışını təşkil etmək üçün 2007-ci ilin dekabrında təsis olunub. SOCAR–ın İsveçrədəki fəaliyyəti "SOCAR Trading" tərəfindən həyata keçirilir və şirkət bu ölkədə neft məhsullarının satışı bazarında fəal iştirak edir. Şirkətin bazar dəyəri təxminən 1,15 milyard ABŞ dollarıdır.

# TARİFLƏRİ 50 FAİZ AZALTMAQLA BAĞLI RAZILIĞA GƏLİBLƏR



*Azərbaycan, İran və Rusiya dəmir yolu tariflərini 50 faiz azaltmaqla bağlı razılığa gəliblər.*

"Mehr" agentliyi xəbər verir ki, məqsəd "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə yük daşımalarının fəallaşdırılmasıdır.

"İran Dəmir Yolları" şirkətinin sədr müavini Hüseyn Aşuri bildirib ki, qərar Moskvada 3 ölkənin nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə qəbul edilib. Görüşdə həmçinin, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində Azərbaycan ərazisindən yüklərin daşınması prosesinin təşkili, eləcə də Astarada İranın sərhəd terminalının tranzit imkanlarının inkişafı müzakirə edilib.

Üçtərəfli görüşdə yüklərin Rusiya, Azərbaycan, Belarus, Latviya, Estoniya və Finlandiyadan Fars körfəzi ölkələri və Hindistana, eləcədə əksinə hərəkəti üçün marşrutun aktivləşdirilməsi məqsədi ilə güzəştli tarif dərəcələrinin müəyyənləşdirilməsi əsas müzakirə edilən məsələ olub.

# İKİNCİ DAYAQ BLOKU DƏNİZƏ YOLA SALINIB

*"Şahdəniz Mərhələ 2" platformalarının ikinci dayaq bloku dənizə yola salınıb.*

Şahdəniz konsorsiumundan bildirilib ki, Yaşayış Blokları və Texnoloji Təchizat (YBTT) platformasının dayaq bloku qrafiki qabaqlayaraq martın 15-də Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodundan (BDÖZ) Xəzər dənizindəki "Şahdəniz" müqavilə sahəsinə yola salınıb. Dayaq bloku konstruksiyasının daşınması, suya endirilməsi, yerləşdirilməsi, payaların üzərinə quraşdırılması və yekun tamamlanma işlərinin hava şəraitindən asılı olaraq təxminən 75 gün davam edəcəyi gözlənilir.



Dayaq blokunun tikintisi qrafiki qabaqlayaraq bu il fevralın 20-də tamamlanıb və sonra uğurla BDÖZ-dəki yanalma körpüsündə STB-1 daşıma barjına yüklənib. "BOS Shelf", "Star Gulf" və "Saipem" konsorsiumu tərəfindən inşa edilmiş bu dayaq bloku yerli tikinti-quraşdırma infrastrukturundan və qurğulardan istifadə olunmaqla bütövlüklə ölkə daxilində BDÖZ-də inşa edilib. Tikinti işlərinə subpodratçılar və ixtisaslaşmış təchizatçılar daxil olmaqla 2 min nəfər işçi cəlb edilmişdi. Bu işçi qüvvəsinin təxminən 90 faizi Azərbaycan vətəndaşları olub.

BP-nin "Şahdəniz-2" layihələri üzrə vitse-prezidenti Yuan Dramond deyib: "İkinci dayaq blokunun dənizə yola salınması cari il üçün planlaşdırılmış ilk mühüm işimizdir və biz qrafiki qabaqlamaqla buna nail olmağımızdan çox məmnunuq. 2017-ci il həm BP şirkəti üçün, həm də artıq təxminən 90 faizi tamamlanmış olan "Şahdəniz-2" layihəsi üçün əhəmiyyətli bir ildir. Biz bu il layihə üzrə bir sıra mühüm işləri tamamlanması planlaşdırırıq. BP-nin Azərbaycandakı fəaliyyətinin 25-ci ildönümünü qeyd etdiyimiz bu il biz planlaşdırdığımız bütün işləri qrafikə uyğun yerinə yetirməklə böyük uğura imza atmaq niyyətindəyik".

"Bununla bağlı mən bu nəhəng layihənin irəliləyişinə göstərdikləri dəstəyə və əməkdaşlığa görə SOCAR-a və tərəfdaşlarımıza dərin minnətdarlığımı bildirirəm. Eləcə də, bu mərhələnin qrafikdən öncə tamamlanmasına nail olmaq üçün öz zəhmətini əsirgəməmiş BP-nin, podratçıların və subpodratçıların bütün əməkdaşlarına minnətdarlığımı bildirmək istəyirəm. Dayaq blokunun 22 aylıq tikinti müddətində BP-nin texniki təhlükəsizlik standartlarına tam əməl etdiklərinə görə "BOS Shelf", "Star Gulf" və "Saipem" konsorsiumuna xüsusilə təşəkkür etmək istəyirəm. Bu, əməyin təhlükəsizliyi baxımından böyük nailiyyətdir və mən əminəm ki, dənizdəki quraşdırma işləri də əməyin təhlükəsizliyinə və keyfiyyətə eyni dərəcədə əməl edilməklə həyata keçiriləcək", - deyə Y.Dramond əlavə edib.

İkinci dayaq blokunun çəkisi təxminən 12 min 84 ton, hündürlüyü isə 105 metrdir. Dayaq blokunun 31 J-formalı borusu, 7 xidməti kessonu və 3 J-formalı boru kessonu var. Dayaq bloku suyun 95 metr dərinliyində quraşdırılacaq.

# "BİR KƏMƏR - BİR YOL" FORUMUNDA 20-DƏN ÇOX DÖVLƏT BAŞÇISI İŞTİRAK EDƏCƏK

*May ayında Pekində keçiriləcək "Bir kəmər - bir yol" strategiyası çərçivəsində beynəlxalq əməkdaşlığa dair forumda 20-dən çox ölkənin dövlət başçısı iştirak edəcək. Bunu Çinin xarici işlər naziri Van İ Pekində keçirdiyi mətbuat konfransında deyib.*




Çin XİN-in rəhbəri bildirib ki, forumda 40-dan çox beynəlxalq təşkilatın rəhbər şəxsləri, nazirlər səviyyəsində 100-ə yaxın nümayəndə iştirak edəcək. Forumda dövlət başçılarının görüşü ilə yanaşı, ticarət, maliyyə, infrastruktur və digər mövzulara dair müzakirələr təşkil ediləcək.

Xatırladaq ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Davosda Dünya İqtisadi Forumunda çıxışı zamanı ilk dəfə "Bir kəmər - bir yol" forumu barədə açıqlama verib. Çin "Bir kəmər - bir yol" adlı yeni iqtisadi inkişaf strategiyasını 2013-cü ildə elan edib. Avrasiya ölkələri, o cümlədən qədim İpək Yolu üzərində yerləşən dövlətlər arasında qarşılıqlı əlaqələrin inkişafına və ticari-iqtisadi əməkdaşlığın inkişafı ilə bağlı müvafiq infrastruktur yaradılmasına yönəlmiş bu strategiya iki mühüm inkişaf istiqamətini əhatə edir: "İpək Yolu İqtisadi Kəməri" və Dəniz İpək Yolu. Söhbət malların güzəştli şərtlərlə Şərqdən Qərbə birbaşa göndərilməsi üçün ticarət dəhlizi yaradılmasından gedir.

Azərbaycan Çinin bu strategiyasını dəstəkləyən ilk ölkələrdən biridir. Prezident İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanmışdı.

*Şahin Cəfərov*

# GƏMİLƏRDƏ BAŞ VERMİŞ REAL HADİSƏLƏR ÜZRƏ İNZİBATİ İCRAATIN TƏHLİLİNƏ DAİR SEMİNAR KEÇİRİLİB

*Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasında Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı tvinninq layihəsi çərçivəsində "Müxtəlif növ gəmilərdə baş vermiş real hadisələr üzrə inzibati icraatın təhlili"nə dair seminar keçirilib.*

Administrasiyanın mətbuat xidmətindən bildirilib ki, layihənin başlıca məqsədi Azərbaycanda dəniz üzgüçülüyünün təhlükəsizliyi və dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş məsuliyyət prosedurlarının Avropa İttifaqı qanunvericiliyi ilə əlaqəli şəkildə həyata keçirilməsi və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialını gücləndirməkdən ibarətdir.





Tvinninq layihəsi çərçivəsində ölkəmizə dəvət olunan ispaniyalı mütəxəssislər - xanım I.G.Fernandez, kapitan L.Fernandez və R.Pastor tərəfindən İspaniya Krallığının inzibati xətalar və inzibati icraat sistemi, İspaniya Ticarət Gəmiçiliyi Məcəlləsinin tələblərinin pozulması halları, hüquq pozuntularının aşkar edilməsi, dəniz nəqliyyatı sahəsində korrupsiya hallarının aradan qaldırılması və şəffaflığın təmin edilməsi, müxtəlif şəxslər, səlahiyyətli orqanların agentləri, o cümlədən, Axtarış və Xilasetmə Agentliyinin əməkdaşları tərəfindən məlumatların verilməsi məsələləri ətraflı izah olunub, dənizin gəmilərdən çirklənməsi, liman nəzarəti, "Dənizdə əməyə dair" Beynəlxalq Konvensiya üzrə bir sıra praktiki məşğələlər aparılıb.

Seminarda Dövlət Dəniz Administrasiyasının və administrasiyanın tabeliyindəki Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin əməkdaşları ilə yanaşı, dənizçilər, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri və Bakı Dövlət Universitetinin dəniz və enerji hüququ fakültəsinin magistrantları iştirak ediblər.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

# ƏLƏT AZAD TİCARƏT ZONASI ŞİMAL-CƏNUB NƏQLİYYAT DƏHLİZİ LAYİHƏSİNDƏ MÜHÜM ROL OYNAYACAQ

*Ələtdə yaradılan Azad Ticarət Zonası Şimal-Cənub nəqliyyat dəhlizi layihəsində mühüm rol oynayacaq.*



Bu fikri Niderland Krallığının Azərbaycan Respublikasındakı səfiri Onno Kervers deyib.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı maraqlı layihədir. Bizim Şimal-Cənub adlı nəqliyyat dəhlizi layihəmiz var. Plana əsasən, bu dəhliz Sankt-Peterburqdan Mumbaya qədər uzanmalıdır. Xəritəyə baxsaq, marşrutun bu regionla da kəsişdiyini görə bilərik. Beləliklə, infrastrukturun inkişafı və yaxşılaşması, həmçinin Xəzər dənizi sahilində - Ələtdə yaradılan Azad Ticarət Zonası, sözsüz ki, bu məsələdə mühüm rol oynayacaq. Əlbəttə ki, Şimal-Cənub marşrutu ilə yanaşı, Şərq-Qərb marşrutu, Yeni İpək Yolu kimi layihələr də mövcuddur. Bütün bunlar iqtisadi əməkdaşlıq üçün geniş imkanlar yaradır", - deyə diplomat bildirib.

Səfir ölkəsinin Azərbaycanda həyata keçirilən layihələri böyük maraqla izlədiyini deyib. Bildirib ki, Niderland Cənub Qaz Dəhlizinin inşasına xüsusi əhəmiyyət verir. Səfir deyib: "Niderland bilavasitə onun benefisiarı olmasa da, bu layihə Avropanın öz enerji ehtiyat mənbələrini şaxələndirməsinə imkan yaratdığı üçün siyasi və strateji mənada çox vacibdir".

Onno Kervers ötən ilin dekabrında Azərbaycanda qəbul edilmiş Strateji Yol xəritələri, həmçinin ölkəmizdə iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin Niderlandın Azərbaycan ilə əməkdaşlığa maraq göstərdiyi məsələlərlə üst-üstə düşdüyünü deyib. O, iki ölkə arasında dərin əməkdaşlıq əlaqələrinin prioritet məsələləri kimi kənd təsərrüfatını və ölkəsinə aid texnologiyaların Azərbaycanda tətbiqini göstərib.

# QAZAXISTAN AZƏRBAYCAN VASİTƏSİLƏ YÜKDAŞIMALARI ARTIRMAQ NİYYƏTİNDƏDİR




*Qazaxıstan 2020-ci ilədək Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımaları 300 min konteynerə çatdırmaq niyyətindədir.*

Bu fikir Qazaxıstan Respublikasının İnvestisiya və İnkişaf Nazirliyinin "Yeni Avrasiya Logistika İnfrastrukturunun İnkişafı" mövzusuna, habelə Kurık limanı avtomobil keçidinin ikinci mərhələsinin tikintisinin reallaşdırılmasına həsr olunan brifinqində səsləndirilib.

Bildirilib ki, bu istiqamətdə yükdaşımaların artırılması Bakı-Tbilisi-Qars dəmir yolu və Kurık limanın istifadəyə verilməsi hesabına həyata keçiriləcək.

Nazirliyin xəbərində deyilir: "Xəzər regionu Qazaxıstan üçün vacib nəqliyyat qovşağıdır. Hazırda Aktau limanı modernləşdirilib və gücü 19,5 milyon tonadək artırılıb. Belə ki, 2016-cı ildə Aktau limanı vasitəsilə 13 min avtomobil nəqliyyatı keçib ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 13 dəfə çoxdur.

# BÜTÜN REGİON ÖLKƏLƏRİNƏ XİDMƏT EDƏCƏK




*Bakı Limanı və onun ətrafında qurulan Azad Ticarət Zonası "Made in Azerbaijan" brendi altında çeşidli istehsalın yaradılmasına zəmin yaradacaq.*

Bu barədə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov Türkiyənin "TRT World" kanalının Azərbaycanın neftdən asılılığını azaltmaq siyasətində Bakı Limanının roluna həsr olunan reportajında deyib.

O bildirib ki, Azərbaycanın qeyri-neft sektorunun inkişafı üçün ən önəmli layihələrindən biri Ələt qəsəbəsində tikilməkdə olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Azad Ticarət Zonası layihəsidir. Bu layihədən Avropa ölkələri, Türkiyə, Rusiya, Çin və başqaları yararlana biləcək. Bakı həm logistik, həm də ticarət üçün bir hab rolunu oynayacaq.

T.Ziyadov qeyd edib ki, bu il birinci fazası yekunlaşan Bakı Limanı və Azad Ticarət Zonası bütün region ölkələrinə xidmət edəcək. Artıq neft erası bitir və Azərbaycan yeni eraya – uzunmüddətli strateji və güclü əhəmiyyəti olan layihələrdən ibarət bir eraya başlayır.

# AXDG-NİN 160 İLLİYİ QARŞISINDA

## "UNUTSAQ, UNUDULARIQ"

### Tələbkar olduğu qədər də qayğıkeş əməkdar müəllim



***Ağaisa Cabbar oğlu Mustafayev 1905-ci il sentyabrın 28-də Bakı şəhərində anadan olub.***

1922-1931-ci illərdə Xəzər hərbi dəniz donanmasında xidmət edib. 1931-ci ildən taleyini Bakı dənizçilik məktəbi ilə bağlayıb. Müəllim, hərbi hazırlıq rəhbəri, hərbi hazırlıq işləri üzrə rəis müavini, məktəbin rəisi işləyib. Təhsil ocağında çalışdığı otuz yeddi ildə yüksəkixtisaslı kadrların hazırlanması üçün əlindən gələni əsirgəməyib. Müdavimlərin vətənpərvərlik ruhunda tərbiyəsi üçün böyük zəhmət çəkib. A. Mustafayev dənizçilər üçün intizamı vacib şərt sayaraq, məktəbdə nizam-intizama ciddi fikir verib. Tələbkarlığı ilə seçilən Ağaisa müəllim ilk baxışdan sərt adam təsiri bağışlasa da, hədsiz dərəcədə mehriban və həssas qəlbli insan olub, müdavimlərə həqiqi mənada ata kimi qayğıkeşlik göstərib. Çoxsaylı yetişdirmələrinin sorağı demək olar ki, vaxtilə Sovet İttifaqında fəaliyyət göstərən bütün gəmiçiliklərdən gəlib.

Ağaisa Mustafayev mədəni, savadlı, nəcib insan kimi kollektivdə böyük nüfuz və hörmət sahibi olub. Fədakar əməyi layiqincə qiymətləndirilib. 1948-ci ildə "Qırmızı Ulduz", 1954-cü ildə "Qırmızı Bayraq" ordenləri, 8 medalla təltif edilib. "Dəniz Donanmasının fəxri işçisi" adına layiq görülüb.

Azərbaycanın əməkdar müəllimi, istefada olan polkovnik Ağaisa Mustafayev 1982-ci ildə dünyasını dəyişsə də, xatirəsi bu gün də böyük ehtiramla yad edilir.

## İLK XƏZƏRŞÜNAS-OKEANOLOQ

***Professor Gül Qasım Kazım oğlu 1909-cü il dekabrın 31-də Şamaxı şəhərində anadan olmuşdur.***



1919-cu ildə atası Kərbəlayı Kazım ailəsi ilə birlikdə Bakıya köçür və on yaşlı Qasım Xəzər Gəmiçiliyində yunqa kimi fəaliyyətə başlayır. 1924-cü ildə Bakı dənizçilik texnikumuna daxil olur və texnikumu bitirdikdən sonra Xəzər Dəniz Gəmiçiliyində işləməyə başlayır.

1931-ci ildə Gül xüsusi göndərişlə Leninqrad Su Nəqliyyatı Mühəndisləri İnstitutuna daxil olur və 1933-cu ildə institutun "Dəniz gəmi idarəetmə" fakültəsini müvəffəqiyyətlə bitirib, "mühəndis-pedaqoq" ixtisası üzrə diplom alır. Elə həmin il 24 yaşlı Qasım Gül Bakı dənizçilik texnikumunun direktoru təyin edilir.

Böyük Vətən müharibəsi illərində Qasım Gül hərbiləşdirilmiş balıqovlayan donanmaya rəhbərlik edir və flaqman şturmanı vəzifəsini tutur. Donanmada fədakar əməyinə görə "Qafqazın müdafiəsi" medalı ilə təltif olunur.

Müharibədən sonra Qasım Gül Azərbaycan Dövlət Universitetinin coğrafiya şöbəsində pedaqoji işə keçir və qısa vaxtda - 1947-ci ildə namizədlik, 1951-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edir. O, 1948-ci ildə dosent, 1953-cü ildə isə professor elmi adını alır və elə həmin ildə də universitetin geologiya-coğrafiya fakültəsinin fiziki coğrafiya kafedrasının müdiri vəzifəsinə seçilir.

Professor Qasım Gül 1954-1957-ci illərdə Azərbaycan Dövlət Universitetində elmi işlər üzrə prorektor vəzifəsində işləyərkən böyük müvəffəqiyyətlərə nail olur. Elm fədaisinin işi yüksək dəyərləndirilərək 1957-ci ildə Coğrafiya İnstitutuna direktor təyin edilir və bu vəzifədə 1962-ci ilin sonunadək çalışır. 1962-ci ildən ömrünün sonunadək Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunun Xəzər bölməsinə rəhbərlik edir.

Professor Qasım Gül elmi fəaliyyətində Xəzərşünaslığı aparıcı istiqamət kimi götürərək, Xəzəri, xalqımızı tanıdan böyük alim - Azərbaycanın ilk coğrafiya elmləri doktoru, coğrafiya sahəsində ilk professor, AEA-nın ilk müxbir üzvü, ilk Xəzərşünas-okeanoloq kimi ad qazanır.

Görkəmli alim, fədakar elm xadimi 1972-ci il may ayının 31-də 63 yaşında vəfat edib.

***Sevda Abdullayeva,***
***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin İctimaiyyətlə əlaqələr üzrə mütəxəssisi***



Au moment où le protectionnisme gagne du terrain, Pékin multiplie les initiatives et tente d'amener l'Europe à s'intéresser davantage à sa nouvelle Route de la soie

**La Chine voudrait convertir les Européens à son projet « Une ceinture, une route »**

*Grands travaux*

« L'économie mondiale est un vaste océan auquel nul ne peut échapper »

**L'Azerbaïdjan s'imagine en « hub 5 étoiles » de la Route de la soie**

Au cœur des échanges entre l'Asie et l'Europe

*Labos* *Stéphane Marchand* Drépanocytose: prouesse génique à Necker

## "AZƏRBAYCAN ÖZÜNÜ İPƏK YOLUNUN "5 ULDUZLU QOVŞAĞI KİMİ GÖRÜR"

***Fransanın məşhur "L'Opinion" qəzetində müxbir Klod Leblanın "Azərbaycan özünü İpək Yolunun "5 ulduzlu qovşağı kimi görür" sərlövhəli məqaləsi dərc edilib.***

Məqalədə bildirilir ki, Asiya ilə Avropanın kəsişməsində yerləşən Bakı şəhəri Şərq-Qərb və Şimal-Cənub istiqamətləri üzrə ticarətin inkişafında aparıcı rola malik olmaq niyyətindədir. Qeyd edilir ki, Ələt qəsəbəsində inşa edilən yeni dəniz limanı Azərbaycan hökumətinin bu istiqamətdə atdığı ilk addımdır.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadovun fikirlərinə istinad edən müəllif yazır ki, Bakının Ələt qəsəbəsində yaradılacaq Azad Ticarət Zonasına xarici investorlar tərəfindən maraq böyükdür və bu təşəbbüsün uğurla həyata keçirilməsi ölkənin neftdən asılılığını azaltmağa imkan verəcək.

Azərbaycan hökumətinin regional dəmir yolu şəbəkəsinin inkişaf etdirilməsi üçün fəal iş apardığını vurğulayan K.Leblan Bakı-Tbilisi-Qars və Astara-Rəşt (İran) dəmir yolu layihələri haqqında da məlumat verir. Bildirilir ki, Bakı-Tbilisi-Qars layihəsi yaxın vaxtlarda başa çatacaq. Azərbaycan hökumətinin maliyyələşdirilməsinə 500 milyon dollar vəsait ayırdığı Astara-Rəşt dəmiryolu xətti isə Şimal-Cənub dəhlizinin bir hissəsini təşkil edir.

***Şəhla Ağalarova***

## ŞİRİN SU EHTİYATLARIMIZIN 70 FAİZİ ÖLKƏ HÜDUDLARINDAN KƏNARDA FORMALAŞIR

***Azərbaycanın şirin su ehtiyatlarının 70 faizi ölkə hüdudlarından kənarda formalaşır.***

Bunu martın 15-də Bakıda keçirilən "Su nəinki həyat mənbəyidir, hətta həyatın özüdür" devizi altında I Bakı Beynəlxalq Su Həftəsi çərçivəsində "Su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit" mövzusunda təşkil olunan beynəlxalq elmi-praktik konfransda "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov bildirib.



O bildirib ki, "Aşağı axın" ölkələrindən olan Azərbaycanda əhalinin içməli suya tələbatı və kənd təsərrüfatının ehtiyacları daxili imkanlar hesabına tam ödənilmir. Şirin su ehtiyatlarının 70 faizə qədəri ölkə hüdudlarından kənarda formalaşır. Üstəlik həmin sular çirklənmiş şəkildə Azərbaycana daxil olduğundan canlı aləm üçün böyük təhlükə yaradır. Məlum olduğu kimi çay hövzələri hüdudunda yerləşən ölkələr arasında su ehtiyatlarının istifadəsi və qorunması, su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi sahəsində hamımıza məlum olan və tam həllini tapmayan bir sıra problemlər mövcuddur.

Q.Hüseynovun sözlərinə görə, Azərbaycan bu problemlərin beynəlxalq və ikitərəfli müstəvidə həll edilməsi istiqamətində səylər göstərir. Transsərhəd Samur çayı ilə əlaqədar Rusiya ilə ikitərəfli müqavilə bağlanıb, Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının tikintisi və su ehtiyatlarından istifadə sahəsində İranla saziş imzalanıb. Eyni zamanda Kür çayının idarə olunması ilə əlaqədar Gürcüstanla ikitərəfli müqavilə üzərində iş aparılır.

Qeyd edək ki, Su Həftəsində 40-dək ölkədən Azərbaycana gələn dövlət və özəl qurumları, elmi mərkəzləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edib. Elmi-praktik konfrans Şollar-Bakı Su Qurğuları Kompleksinin 100 illiyi ilə əlaqədar "Azərsu" ASC və Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə keçirilib.



## AZƏRBAYCAN ƏHALİSİ İLİN ƏVVƏLİNDƏN 6,1 MİN NƏFƏR ARTIB

***Fevral ayının 1-i vəziyyətinə Azərbaycan əhalisinin sayı 9816,1 min nəfərə çataraq ilin əvvəlindən 6,1 min nəfər və ya 0,1 faiz artıb.***

Dövlət Statistika Komitəsindən bildiriblər ki, bir kvadratkilometrə düşən əhalinin sıxlığı 113 nəfər olub. Əhalinin ümumi sayının 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1006 nəfər qadın düşür.

Cari ilin yanvar ayı ərzində ölkədə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 12,2 min doğulmuş körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,8 təşkil edib. Doğulan körpələrin 53,0 faizi oğlan, 47,0 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrin 202-si əkiz, 3-ü isə üçəm doğulanlardır.

Yanvarda ölkədə 6,1 min ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə 7,4 təşkil edib.

Cari ilin ilk ayı ərzində qeydiyyat şöbələri tərəfindən 4,3 min nikah və 1,1 min boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,2, boşanmaların sayı isə 1,4 olub.

## YENİ REGİONAL PREZİDENT ÖZ VƏZİFƏSİNİN İCRASINA APRELDƏ BAŞLAYACAQ

***BP-yə yeni regional prezident təyin olunub.***

BP-nin mətbuat xidmətindən bildirilib ki, BP Qəri Counzu BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə yeni regional prezidenti təyin edib. Yeni prezident öz vəzifəsinin icrasına bu il aprel ayının 2-dən başlayacaq və BP-nin Bakıdakı ofisində fəaliyyət göstərəcək. Qəri Counz hazırda BP-nin qazma, tamamlama və quyular üzrə qlobal rəhbəridir.

Qəri Counz bu vəzifədə BP-nin regiondakı biznesinə 2012-ci ilin noyabr ayından uğurla rəhbərlik edən Qordon Birrelli əvəz edəcək. Qordonun yeni vəzifəsi isə Londonda BP-nin baş ofisində baş əməliyyat rəhbəri olacaq və o, BP-nin hasilat, transformasiya və karbon üzrə işlərinə başçılıq edəcək.



BP-nin baş icraçı direktoru Bob Dadli: "Qəri qlobal miqyasda təcrübəli bir neftçi və yetkin bir biznes rəhbəridir. BP-nin dünya üzrə quyularını idarə edən bölümünə uzun müddət başçılıq etmiş bir şəxs kimi o, bu yeni vəzifəyə Xəzərdəki əməliyyatlarımızla bağlı öz dərin texniki bilgilərini gətirir. Qəri BP-nin Rumeyla yatağı və Şimal dənizindəki yataqlar kimi bir sıra çox mühüm biznesini idarə etmişdir. BP Azərbaycanda öz 25 illiyini qeyd etdiyi bir vaxtda bizim qəti niyyətimiz bütün maraqlı tərəflərlə daha da sıx əməkdaşlıq vasitəsilə regiondakı biznesimizin uğurunu davam etdirməkdir. BP-nin yeni regional prezidenti kimi Qəri bizim uğurlu tərəfdaşlığımızı BP-nin burada idarə etdiyi bütün layihələrdəki böyük nailiyyətlərin üzərində quraraq davam etdirəcək.

Fürsətdən istifadə edərək mən, həmçinin Qordona da BP-nin Azərbaycan, Gürcüstan və Türkiyədəki uğurlarının qazanılmasında rəhbərliyinə və bu işlərdəki qətiyyətinə görə öz təşəkkürümü bildirmək istəyirəm. Qordon regiondakı biznesimizə dörd ildən artıq rəhbərlik etmiş və hökumət, SOCAR və tərəfdaşlarımızla çox yaxşı əlaqələr və əməkdaşlığa əsaslanan çoxsaylı uğurlar və nailiyyətlər əldə etmişdir.

Mən Qəriyə və Qordona yeni vəzifələrində uğurlar diləyirəm".

Qəri Counz 30 ildən artıq iş təcrübəsi olan özünü təsdiq etmiş bir biznes rəhbəridir. Hazırda o, BP-nin qazma, tamamlama və quyular üzrə qlobal rəhbəridir. Qəri BP-yə 1981-ci ildə gəlib və indiyədək şirkətin qazma, əməliyyatlar və layihələr üzrə bir çox rəhbər vəzifələrində çalışıb.

BP-də işləməyə başladığı ilk illərdə Qəri qazma və quyular üzrə bir sıra mühəndis və texniki vəzifələrdə çalışıb, o cümlədən Meksika Körfəzində dərinsulu əməliyyatlarda, Şimal dənizində, həmçinin Çin, Niderland və Afrikada çoxsaylı qazma əməliyyatlarında fəaliyyət göstərib.

Onun çalışdığı əsas rəhbər vəzifələrə BP-nin İraqdakı əməliyyatlarına Rumeyla yatağı üzrə baş icraçı menecer/əməliyyatlar üzrə vitse-prezident kimi başçılıq etmək, Rusiyada Verxneçonskoye yatağı üzrə layihə direktoru/prezident kimi əsas rəhbər vəzifə və BP-nin Şimal dənizindəki bizneslərində bir çox yüksək rəhbər vəzifələr daxildir.

Qəri Counz Birminqem Universitetinin məzunudur və kimya mühəndisliyi üzrə ixtisas dərəcəsi var.

Evlidir, iki oğlu var.

## "DƏNİZ KUBOKU -2017" BEYNƏLXALQ YARIŞININ PLANLAŞDIRILMASI ÜZRƏ NÖVBƏTİ KONFRANS KEÇİRİLİB

***Martın 15-də Hərbi Dəniz Qüvvələrinin qərargahında Azərbaycanın ərazi sularında təşkil olunacaq "Dəniz Kuboku - 2017" beynəlxalq yarışının planlaşdırılması üzrə növbəti konfrans keçirilib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan, Rusiya, Qazaxıstan və İranın nümayəndə heyətlərinin qatıldığı konfransda "Dəniz Kuboku - 2017" beynəlxalq yarışının ölkəmizdə keçirilməsinin əlamətdar hadisə olduğu vurğulanıb. Həmçinin hazırlıqla bağlı məsələlər və görüləcək işlər müzakirə olunub. Bildirilib ki, "Dəniz Kuboku-2017" artilleriya atışı, gəminin davamlılığı uğrunda mübarizə, dəniz və xilasetmə hazırlığı üzrə yarışlardan ibarət olmaqla üç mərhələdə keçiriləcək.

"Dəniz Kuboku-2017"də iştirak edəcək ölkələrin nümayəndə heyətləri yarışların təşkilinə və göstərilən diqqətə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



## ƏN BÖYÜK DÖYÜŞ GƏMİSİNİ CƏNUBİ ÇİN DƏNİZİNƏ GÖNDƏRMƏYİ PLANLAŞDIRIR

***Yaponiya may ayında ən böyük döyüş gəmisini 3 ay müddətində Cənubi Çin dənizinə göndərməyi planlaşdırır.***

Reuters agentliyinin verdiyi xəbərə görə, bu, regionda İkinci Dünya müharibəsindən sonra hərbi dəniz qüvvələrinin ən böyük şousu olacaq.

Qeyd edək ki, Yaponiya Şərqi Çin dənizində Çin ilə aralarında olan gərginliyə görə dəfələrlə belə addımlar atıb.

## ERMƏNİLƏRDƏN DAHA BİR TƏXRİBAT – MOBİL TELEFONUNUZDAN ŞƏXSİ İNFORMASİYA, VİDEO VƏ ŞƏKİLLƏRİNİZ OĞURLANA BİLƏR

***Elektron media və kütləvi informasiya vasitələrində Azərbaycana qarşı apardığı informasiya müharibəsində uduzduğunu anlayan düşmən Ermənistan bu dəfə "Android" və "İOS" sistemli telefonlar vasitəsi ilə cəmiyyətimizə qarşı yeni çirkin planlarını həyata keçirmək niyyətindədir.***

Bu günlərdə Ermənistan Barselonada keçirilən "2017 Mobil Dünya Konqresi"ndə Skype, Viber və WhatsApp-a alternativ olan "Zangi Messenger" proqramını təqdim edib. Ermənilər rəsmi olaraq "Zangi Messenger"lərini 2015-ci ildə istifadəyə verdiklərini desələr də, nədənsə "Android" və "İOS" sistemli platforma üzərində işləyən proqramlarının təqdimatını son vaxtlar cəbhədə təxribat cəhdlərinə cavab olaraq aldıqları sarsıdıcı zərbələrdən sonra keçirməyə qərar veriblər.




Vətəndaşlarımızın WhatsApp, Skype, Viber və bu kimi proqramların istifadəsinə maraqlarını nəzərə alaraq ermənilərin rabitə proqramları bazarına çıxardıqları "Zangi Messenger"in ölkəmiz üçün hansı təhlükələr doğurduğunu araşdırmaq qərarına gəldik. Bu zaman qarşımıza çıxan bir çox faktlar yenə də ermənilərin əsas məqsədlərinin Azərbaycana qarşı məkrli niyyətlərini həyata keçirmək olduğuna şübhə yeri qoymadı.

Başlayaq elə bu proqramın təqdimat loqosundan. Təqdimat mərasimdə nümayiş olunan loqodan da aydın göründüyü kimi erməni proqramı ilk baxışdan Azərbaycan auditoriyası üçün cəlbedici olmaq və vətəndaşlarımızı şübhələndirməmək üçün belə tərtib edilib. Proqram istifadəçilərə demək olar ki, "Zangi Messenger" kimi yox, "ZƏNGİ" kimi təqdim edilir. Bununla bərabər, messencerin çıxarıldığı "Play store"da yükləyicilərə bu proqramın kimə məxsus olduğu və hansı ölkənin İT mühəndisləri tərəfindən hazırlandığı barədə heç bir məlumat verilmir.

Ermənistan Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin nəzarətindəki bu proqramın baza və əsas serverinin də harada yerləşməsi barədə heç bir məlumat göstərilməyib.

Proqramın idarəçiliyinə və əsas bazasına nəzarət edən 25 erməni texniki bu proqramın "tam təhlükəsiz olduğuna" təminat veriblər. Proqram yüklənərkən isə istifadəçiyə onun yerləşdiyi məkandan tutmuş, telefon əlaqələri, danışıqları, şəxsi məlumatları, fotoşəkilləri, videoları, blutus yükləmələri və sair kimi bütün şəxsi sirlərinin proqram tərəfindən əldə ediləcəyi bildirilir.

Əsas baza və serveri ermənilərin əlində olan "Zangi Messenger"in ölkəmiz və cəmiyyətimiz üçün hansı dərəcədə təhlükəli olduğunu təsəvvür etmək çətin deyil. Ermənilər ölkəmizdən olan istifadəçilərdə maraq yaratmaq üçün azərbaycanlı adları altında saxta profillər yaradaraq rəy yazmağı da yaddan çıxarmayıblar.

Hazırda bu proqramın 500 min istifadəçisi mövcuddur. Düşmən ölkə yaxın vaxtlarda vətəndaşlarımızı "Zangi Messenger"dən istifadəyə cəlb etmək üçün proqramın Azərbaycan və türk dillərində əlavələrini təqdim etməyə hazırlaşır.

***AZƏRTAC***



# İTKİN DÜŞMÜŞ BALIQÇILARIN AXTARIŞI DAVAM EDİR

***Rusiya gəmisi ilə ispan balıqçı traulerinin toqquşması nəticəsində Barselona sahilində itkin düşmüş iki balıqçının axtarışları davam edir. Bunlar 34 yaşlı Mərakeş sakini və 37 yaşlı Seneqal vətəndaşıdır.***

Hər iki balıqçı "El Fairell" traulerində olarkən "Midvolqa-2" Rusiya gəmisi ilə toqquşub. Nəticədə trauler batıb. Traulerdə olan 4 nəfərdən ikisi xilas olunub. Axtarışlarda 22 gəmi, bir vertolyot iştirak edir.

140 metrlik Rusiya gəmisi Barselona limanından İsgəndəriyyə şəhərinə hərəkət edirdi. Hadisədən sonra gəmi limana qayıtmağa məcbur olub. Kapitan hadisə ilə bağlı ifadə verəcək. Kataloniya tərəfi hələ ki, hər hansı bir nəticəyə gəlməyin tez olduğunu deyib.



# İLK GƏMİ TUNELİ İNŞA EDİLİR

***Norveç dünyanın ilk gəmi tunelini inşa edir.***

Türkiyə KİV-ləri xəbər verir ki, Norveçin qərb sahilində inşa ediləcək tunel 260 milyon avroya başa gələcək.

Tunelin inşasında məqsəd qış aylarının çox soyuq keçdiyi və tez-tez qəzaların baş verdiyi Stad yarımadasının ətrafından gəmilərin keçidinin qarşısını almaqdır. Yarımadanın altından keçəcək tunelin 2029-cu ildə istifadəyə verilməsi planlaşdırılır. Tunelin hündürlüyü 45 metr, eni 36 metr, uzunluğu isə 1,7 kilometr olacaq.



# NƏHƏNG GƏMİNİN "BURNUNU" XATIRLADAN KOMPLEKSİN LAYİHƏSİ HAZIRLANIB

***Niderlandın "BIG" memarlıq bürosu özündə 380 mənzili, 4000 kvadratmetr ticarət sahəsini və ictimai yerləri, həmçinin su üzərində yerləşdirilə bilən 30 "üzən ev"in layihəsini hazırlayıblar.***

"admaqazine.ru" saytı bildirir ki, "Sluishuis" adlanan kompleks "arka" formasına malik olmaqla Amsterdamın gözəl mənzərəli rayonlarından birində tikiləcək.

Kompleksin silueti baxış bucağından asılı olaraq dəyişir. Belə ki, bir tərəfdən baxanda o, nəhəng gəminin "burnunu", digər tərəfdən isə şaquli şəkilli yaşıl bağı xatırladır.

Layihə müəlliflərinin fikrincə, "Sluishuis" Amsterdamın sakinləri və qonaqları üçün gözəl səyahət yerinə çevriləcək.



# ÖZ AĞIRLIĞINDAN 90 DƏFƏ ÇOX NEFTİ SUDAN AYIRIR

***Tədqiqatçıların hazırladığı yeni maddə öz ağırlığından 90 dəfə çox nefti sudan ayırır və süngər kimi özünə çəkərək daha sonra yenidən istifadə üçün buraxır.***

ABŞ-ın Arqon Milli Laboratoriyasının tədqiqatçıları tərəfindən istehsal edilən bu süngərəbənzər maddənin əsas xüsusiyyəti sudakı nefti özünə çəkməsidir. Lakin bu maddəni fərqləndirən əsas cəhət isə öz ağırlığının 90 dəfə çox olan nefti sudan ayırmasıdır.

Süngərəbənzər maddəni hazırlayan Seth Darlinq deyib ki, bu maddəni neft və qazma əməliyyatların intensiv olduğu dənizlərdə istifadə ediləcəyi təqdirdə hər hansı bir neft sızmasına dərhal müdaxilə etmək mümkün olacaq.

# "XƏZƏRDƏN BAŞLAYAN SU SƏYAHƏTİ"

***Martın 14-də "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları "Xəzərdən başlayan su səyahəti" proqramının marşrutunu elan edib. Aprelin 5-də Dağ Salnamə Muzeyində start veriləcək marşrut Azərbaycanın 15 bölgəsini əhatə edəcək. İslam aləmində həyat mənbəyi, şəffaflıq və təmizlik rəmzi olan su Xəzərdən başlayan səyahət turunun əsas mövzusudur.***




"Bakı-2017"nin saytı xəbər verir ki, proqram çərçivəsində Azərbaycanın su bölgələrini təmsil edən 16 uşağın hər biri "Bakı-2017" su səhəngi ilə Xəzər dənizindən su götürəcək və öz doğma şəhərlərinə, evlərinə aparacaq. Bununla da "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Xəzərin gözəlliyindən, sevgisindən və paklığından hər evə pay verəcək.

Otuz yeddi gün ərzində 3 min kilometrdən artıq məsafənin qət olunacağı səyahət turu Xəzər dənizindən başlayaraq, Azərbaycan ərazisində mövcud olan 15 su hövzəsini əhatə edəcək. Səyahət zamanı bu hövzələrdən toplanan su mayın 12-də "Bakı-2017"nin açılış mərasiminin bir hissəsi olacaq. Bu münasibətlə keçiriləcək hər bir su mərasimi axşam su festivalı ilə müşayiət olunacaq. Xəzər dənizinin suyu ilə doldurulmuş "Bakı-2017" səhənglərinin nümayişi zamanı tədbirə təşrif buyuracaq hər bir vətəndaş Azərbaycan musiqisindən, rəqslərindən zövq alıb, su effektlərinin yaratdığı gözəlliyi, eyni zamanda, atəşfəşanlığı izləmək imkanı qazanacaq.

Başlanğıcını Xəzər dənizindən götürərək bütün Azərbaycanı əhatə edəcək marşrutun önəmindən bəhs edən Təşkilat Komitəsi ölkəmizin tarixini, mədəniyyətini, adət və ənənələrini nümayiş etdirmək üçün bu layihənin əvəzsiz rol oynadığını bəyan edir.

Mayın 12-22-də ölkəmizdə keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarına təşrif buyuracaq hər bir qonaq Azərbaycandan ən xoş xatirələrlə ayrılacaq. Xalqımızın qonaqpərvərliyi, öz tarixinə və mədəniyyətinə sevgisi hər kəsə yaxşı bəllidir. Məhz Oyunlardan əvvəl regionlarımızı əhatə edəcək səyahət, bölgələrimizin xüsusiyyətlərini, adətlərini, tarixini, bir sözlə, Azərbaycan gözəlliyini bütün dünyaya nümayiş etdirəcək.

Azərbaycanın dəmirçilik sənətinin incilərindən sayılan, səthi hamar, döyülmüş misdən hazırlanan "Bakı 2017"nin səhəngləri İslam dünyasının ənənəvi su qablarının dizaynını özündə əks etdirir.

"Xəzərdən başlayan səyahət" aprelin 5-də Bakıdan, 7-də Naxçıvandan, 9-da Astaradan, 11-də Şirvandan, 13-də Sabirabaddan, 15-də Ağcabədidən, 17-də Horadizdən (Fizuli), 19-da Gəncədən, 21-də Şəmkirdən, 23-də Mingəçevirdən, 25-də Qaxdan, 27-də Qəbələdən, 29-da Qusardan, mayın 1-də Qubadan, mayın 3-də Qaradağdan, mayın 5-də isə Sumqayıtdan keçəcək.

# BEYNƏLXALQ ÇAYLAR GÜNÜ BİR ÇOX ÖLKƏLƏRDƏ QEYD OLUNUR

***Martın 14-də bir çox ölkələrdə əvvəllər Beynəlxalq Bəndlər əleyhinə, Çaylar, Su və Həyat uğrunda Mübarizə Günü adlandırılan Beynəlxalq Çaylar Günü qeyd edilir. Bu gün dünyada Bəndlər əleyhinə Beynəlxalq Fəaliyyət Günü kimi də tanınır.***



Bəndlər əleyhinə dünya hərəkatının əvvəlində - 1998-ci ilin bu günündə dünyanın 20-dən çox ölkəsində, o cümlədən Braziliya, Hindistan, Tailand, Avstraliya, Rusiya, Yaponiya və ABŞ-da 50-dən çox etiraz aksiyası keçirilib. Birinci il nümayişlərdə, etiraz məktublarının göndərilməsi, çayların təmizlənməsi üzrə kampaniyalarda 10 mindən çox biganə olmayan adam iştirak edib. Sonrakı ildə iştirakçıların sayı artıq 100 mini keçib.

Dünyanın 177 ən iri çayının (uzunluğu bir min kilometrdən çox olan) yalnız üçdəbir hissəsinin başlıca məcrasında bəndlər və digər qurğular yoxdur. İyirmi bir böyük çay mənbəyindən mənsəbinədək azaddır. Konqo, Amazonka və Lena kimi böyük çayların 43 böyük qolu tənzimlənməmiş qalır. Çaylarda bəndlərin tikintisi bütün planetin təbiətini təhdid edən təhlükəli meyildir. İri bəndlərin uçmasının nə kimi nəticələrə, o cümlədən mümkün fəlakətlərə və dağıntılara gətirib çıxaracağını unutmamaq lazımdır. Tənzimlənməmiş çayların çoxu Asiya, Cənubi və Şimali Amerikada yerləşir. Avstraliya və Okeaniyada üç belə çay var. Uraldan qərbdə yerləşən ərazi də daxil olmaqla, Avropada yalnız bir böyük çay – Rusiya ərazisində yerləşən Peçora çayı mənbəyindən dənizə qədər azad axır.

Ümumdünya Su Forumunun proqnozlarına görə, dünyanın hər dörd ən iri çayından biri yaxın 15 ildə tənzimlənəcək. Amma bəndlər əleyhinə hərəkatın fəalları müxtəlif ölkələrdə bəndlərin sökülməsinə nail olmaq üçün mübarizələrini davam etdirirlər.

("Calend.ru" saytının materialları əsasında)

# OKEAN SULARI DAHA SÜRƏTLƏ QIZMAĞA BAŞLAYIB



***Çin Elmlər Akademiyasının alimləri bildiriblər ki, okeanlarda suyun temperaturu nəzərdə tutulduğundan sürətlə artır.***

"Science Advances" saytı xəbər verir ki, qazıntı şəklində yanacaqdan istifadə nəticəsində əmələ gələn "izafi istiliyin" təqribən 90 faizini Dünya okeanı udur. Alimlər hesab edirlər ki, ən mühüm məlumatları suyu öyrənməklə əldə etmək olar. Çinli tədqiqatçıların sözlərinə görə, 1960-cı ildən 2015-ci ilədək okeanların temperaturu 15 faiz artıb.

Mütəxəssislər bir neçə il əvvəl AQRO sisteminin köməyi ilə ölçmələr aparıblar. Onlar əvvəllər bu işlər üçün batitermoqrafdan istifadə edirdilər. Amma bu cihazı insanın iştirakı olmadan böyük dərinliyə batırmaq mümkün deyil. AQRO sistemi planetimizin müxtəlif guşələrində yerləşən 3,5 mindən çox üzmə qurğusunu əhatə edir. Alimlər bu sistemin köməyi ilə müəyyən ediblər ki, okean suları 1992-ci ildən ikiqat sürətlə istiləşməyə başlayıb.

# "MÖHKƏM YUXU - SAĞLAMLIĞA QAYĞI"DIR



***17 mart dünyada Yuxu Günü kimi qeyd edilir. Bu tarix 9 il əvvəl Dünya Səhiyyə Təşkilatı tərəfindən təsis edilib.***

Həkimlər sağlam yuxunun vacibliyini qeyd edir və yuxu pozuntuları ilə bağlı problemlərə diqqət çəkməyə çalışırlar. Yuxu Günü ilə bağlı bu ilin şüarı "Möhkəm yuxu - sağlamlığa qayğı"dır.

m24.ru saytı xəbər verir ki, düzgün yuxu zamanı orqanizmin günlük həyatda sərf edilən bütün qüvvəsi bərpa olunur. Alimlərin müxtəlif peşə sahibləri arasında apardıqları araşdırmalarından məlum olub ki, əməyin qorunması və təhlükəsizlik texnikası mühəndisləri gündə 6 saatdan az yatırlar. Onlardan sonra bu siyahını müəllimlər, fəhlələr, mühafizəçilər və sürücülər davam etdirirlər. Yuxu çatışmazlığı aşpaz və qənnadı ustalarının fəaliyyətinə də mənfi təsir göstərir. Tədqiqatlara əsasən bəlli olub ki, normal yuxusunu alanlar, yəni təxmini 6-8 saat arası yatanlar mühasiblər, məşqçilər, mühəndislər və rəhbər vəzifəsində çalışan şəxslərdir.

# YARIZARAFAT, YARIGERÇƏK

**Adam var, onu görəndə tez-tez görmədiyimə elə sevinirəm ki...**

**Ağıllı adamları çıxsaq, dünyada mahiyyəti olan bir şey qalmaz.**

**Tamahımıza aldanmasaq, bizi heç kim aldada bilməz.**

**Utanmayandan doğru heç nə gözləmə.**

**Yaxşı ki, 37-ci il deyil. Yoxsa bəzilərinin işləri yağ kimi gedərdi.**

**Hər şeyin bitdiyini düşünsən, sənin üçün həqiqətən də hər şey bitər.**

**Bəzilərinin qapısı tənbəllikdən açıq olmur?**

**Düşünməyə bir şey olmadığı üçün bəziləri haqlı olduğunu düşünürlər?**

**Udanda, istənilən oyun adamın xoşuna gəlir.**

**Dayısı olanın dayısı olandan xoşu gəlməz, dayısızın heç birindən.**

**Mən mükafatlarımızın o dünyada veriləcəyinə inanıram. Amma bu, o demək deyil ki, bu dünyada mənə çatası bütün mükafatlar layiq olmayanlara verilsin.**

**Yaxşı adam olmağın bir qaydası var: yaxşı adam olmağı ürəkdən istəmək.**

**Görmək istəmədiklərimiz adətən gözümüzə daha çox görünür.**

**Məndən mənim özümdən gözləmədiyim nəyisə gözləmək sadəcə sadəlövhlükdür.**

**İnsan arzusuz bir gün də yaşayırsa, o gün yaşamadı demək.**

**Kimlərin həmişə səninlə olacağını dəqiq bilirsənsə, olacaqlardan qorxma.**

**Cavablarını bildiyim bütün suallar mənim üçün mənasızdır. Məni bilmədiyim suallara cavab tapmaq istəyi yaşadır.**

**Dünya, görmək istəyənlər üçün gözəlliklə doludur.**

**Doğulduğun günü unutmamaqdansa, niyə doğulduğunu unutmamaq gərək.**

**Qəpik-quruşa dəyməyən neçə adamı bir yerə toplasan bir manata dəyərlər?**

**Bəzi adamların susmağı bir çoxlarının qışqırmağından daha çox beynə təsir edir.**

**Yaşamaqdan başqa, insan hər şeydən yorulur.**

**Çox danışanın az bildiyini bilmək çətin deyil.**

**Səfehlər problem yaratmaqla, ağıllılar adətən səfehlərin yaratdıqları problemləri həll etməklə məşğul olurlar. Belə çıxır ki, ağıllılar bütün ömürləri boyu səfehlərə işləyirlər.**

**Bəzən yüz danlağın həll edə bilmədiyini bir xoş söz həll edir.**

**"Atanşik"lərin ən pisi günahını başqalarının üstünə atandır.**

**Hər şeyi yenidən başlamağa gücü çatan güclü adamdır.**

**Həqiqi məhəbbətlə sevən üçün yarın cazibəsi yerin cazibəsindən güclü olur.**

**Torpağa baxanda özümü görürəm. Çünki bir gün torpağa dönəcəyəm.**

**İlanı yuvadan çıxara biləcəyi üçün şirin dilimiz yoxdur?**

**Sevdiklərimi itirmək qorxusundan az qalır seməyi özümə yasaq edim.**

**Bitirə bilmədiyin savaşa başlama.**

**Bəziləri kişilikdən niyə vaz keçir?**

**İçimdə öldürdüyüm çox şeyə görə təkcə mən günahkar deyiləm.**

**Qəribədir, ölümün də yaxşısı varmış...**

**Ölüm olmasaydı, həyat da olmazdı.**

**Kar, vicdanının səsini eşitməyəndir.**

**Haqqımda həmişə pis fikirləşirlərsə, deməli sabit adamam – dəyişmirəm.**

**Pis adamdan uzaq olmaq üçün onu irəli çəkirlər?**

**Başımda dəlləkliyi öyrənənlərin hər birinin yəqin indi işləri "xod" gedir.**

**Bəziləri gözə girmək üçün nə isə edirlər, bəziləri isə gözə girirlər ki, "nə isə"ni də etməsinlər.**

**Ətrafdakıların dünyagörüşünə bələd olduqca, daha çox tək qalmaq istəyirəm.**

**Bəzilərini heç nə bilmədikləri, bəzilərini isə daha çox bildikləri üçün çox yerə buraxmırlar.**

**Ən böyük ikiüzlülük, insanın özüylə ikiüzlülük etməsidir.**

**Mən hətta yaxşı köynəyi və ya ayaqqabısı olmadığı üçün xəcalət çəkən gömüşəm, amma indiyədək ağlı olmadığı üçün kiminsə xəcalət çəkdiyini görməmişəm.**

**Bəziləri özlərini elə aparırlar ki, sanki ağılları aşıb-daşır, sadəcə bədxərc olmadıqları üçün istifadə etmirlər.**

**Yaxşı ki, həyatda çox şey istəmədim. Bu, özlərindən razı adamlara ağız açmamağıma imkan verdi.**

**Hər şeyi güclə həll etmək gücsüzlük əlamətidir. Ağılla çox şeyi yerinə qoymaq olar.**

**Həqiqət qazanmayıbsa, kimin qazandığı mənim üçün maraqlı deyil.**

**Əgər düşmənləriniz sizi yolunuzdan çəkindirməyə çalışarlarsa, deməli, doğru yoldasınız.**

**Mən şeytan deyiləm və məni də aldatmaq olar. Amma, daha çox çalışıram ki, məni şeytan aldada bilməsin.**

**Doğru yola qayıtmağınız üçün ən münasib vaxt daha tez qayıda biləcəyiniz vaxtdır.**

**Hədsiz dərəcədə gecikəndə və ya hədsiz dərəcədə tələsəndə uğur şansınızı əldən buraxırsınız.**

**Özünə inanmayan adam mənim ona inanacağıma niyə inanır?**

**İnsanlar bilsələr ki, danışanda özlərini necə ələ verirlər, danışmazlar.**

**Zora düşmək istəmirsinizsə, bütün məsələlərdə "qızıl orta"dan uzaqlaşmayın.**

**Mən yaxşıdan neçə dəfə pis dolandığım barədə yox, pisdən nə qədər yaxşı dolandığım barədə fikirləşirəm.**

**Keçmişinlə nə qədər çox yaşasan, gələcəyin də səndən o qədər uzaqlaşacaq.**

*Rasif TAHİROV*

## KİŞİLƏR 6, QADINLAR İSƏ 4 DƏST MEDAL UĞRUNDA MÜBARİZƏ APARIBLAR



***Bakıda, Milli Gimnastika Arenasında idman gimnastikası üzrə Beynəlxalq Gimnastika Federasiyasının (FIG) dünya kuboku yarışları keçirilib.***




Azərbaycan gimnastı Marina Nekrasova sərbəst hərəkətlərdə bürünc medal qazanıb. O, finalda 12.833 xal yığaraq ən yaxın rəqibi yunanıstanlı gimnast İoanna Suloqini 0.2 xal qabaqlayıb. Bu hərəkət üzrə qızıl medalı 13.433 xalla rumıniyalı gimnast Katalina Ponor qazanıb. Gümüş medala isə 13.400 xalla avstraliyalı gimnast Emili Littl sahib olub.

Kişilər arasında turnikdə hərəkətlər üzrə yarışın finalında yaponiyalı gimnast Naoto Hayasaka birinci yeri tutub. O, 14.333 xal toplayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İkinci yerdə 14.000 xalla Xorvatiya gimnastı Anton Kovaçeviç, üçüncü yerdə 13.866 xalla Litva gimnastı Tomas Kuzmiçkas qərarlaşıblar.

Dünya kubokunda kişilər arasında gimnastika atı üzərində hərəkətlərin finalında Çin gimnastı Hao Venq 15.400 xalla birinci yerə yüksəlib. Macarıstan təmsilçisi Kristian Berki 15.266 xalla ikinci, xorvatiyalı Filip Ude 15.200 xalla üçüncü olublar.

Bakının artıq ikinci ildir ev sahibliyi etdiyi dünya kubokunda 23 ölkədən 85 kişi və 35 qadın idmançı iştirak edib. Hazırkı Olimpiya dövrünün 2017-ci ildən qüvvəyə minən yeni qaydaları əsasında keçirilən yarışlarda kişi gimnastları 6, qadın gimnastları isə 4 dəst medal uğrunda mübarizə aparıblar.

## IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ İLK BİLETLƏRİ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ VƏ XANIMI MEHRİBAN ƏLİYEVAYA TƏQDİM OLUNUB

***"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasiminə 55 gün qaldığı vaxtda – martın 18-də Oyunların ilk biletləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və xanımı, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya təqdim olunub. Biletlər Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə Bakıda keçirilən ümumxalq şənliyində təqdim edilib.***

BAKU 2017
4th Islamic Solidarity Games

Oyunlarla əlaqədar satışa 500 min bilet çıxarılacaq. "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında azarkeşlər idmanın 20 növü üzrə 170 idman sessiyasını izləmək imkanı əldə edəcəklər. Bütün idman sessiyaları üçün biletlərin qiyməti 2-5 manat arasında dəyişir.

"Bakı-2017"nin təşkilatçıları biletləri birinci Avropa Oyunlarında olduğu kimi, münasib və əlverişli qiymətlərlə satılmasını təmin edəcəklər ki, daha çox ailələr və gənc azarkeşlər bu yaz baş tutacaq mötəbər idman yarışından zövq ala bilsin. "Bakı-2017" 16 yaşadək bütün gəncləri güzəştli biletlərdən yararlanmağa səsləyir. Belə ki, onlar 13 idman sessiyasına pulsuz buraxılacaqlar. Həmçinin 2-16 yaşlı uşaqlar üçün Heydər Əliyev adına Arenasına, Milli Gimnastika Arenası və Tofiq Bəhramov adına Respublika Stadionuna təyinatlı biletlərin qiyməti bir manat olacaq.

Dünyanın müxtəlif ölkələrindən olan idman həvəskarları "Bakı-2017"nin möhtəşəm açılış və bağlanış mərasimlərini mayın 12-də və 22-də Bakı Olimpiya Stadionunda izləyə biləcəklər. Açılış mərasiminə biletlərin qiyməti 20-200, bağlanış mərasimi üçün isə 10-100 manat arasında dəyişir.

IV İslam Həmrəyliyi Oyunları üçün biletləri "Bakı-2017"nin rəsmi vebsaytı – "www.baku2017.com/tickets" vasitəsilə, yaxud paytaxtımızın müxtəlif məkanlarında quraşdırılacaq 12 satış məntəqəsindən əldə etmək olar.

İslam dünyasını birləşdirən maraqlı və çoxnövlü idman tədbiri olan "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları mayın 12-22-də keçiriləcək.

Müsəlman ölkələrini təmsil edən idmançılar on yarış günü ərzində idmanın 20 növü (23 kateqoriya) - atletika və para-atletika, su idmanı növləri (suyatullanma, üzgüçülük, su polosu), basketbol 3x3, futbol, idman gimnastikası, bədii gimnastika, uşu, stolüstü tennis, həndbol, cüdo və görmə qabiliyyəti olmayanlar üçün cüdo, yunan-Roma güləşi, sərbəst güləş, atıcılıq, tennis, voleybol, boks, zorxana, karate, taekvando, ağır atletika üzrə 16 müasir idman qurğusunda keçiriləcək yarışlarda mübarizə aparacaqlar.

IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakıda keçirilməsi ilə bağlı qərar 2013-cü il iyulun 24-də İslam Həmrəyliyi İdman Federasiyasının Səudiyyə Ərəbistanının Ciddə şəhərində təşkil olunan VIII Baş Assambleyasında qəbul edilib. 2015-ci il sentyabrın 18-də Azərbaycan Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb. IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevadır.

IV İslam Həmrəyliyi Oyunlarının media akkreditasiyasından keçmək üçün aşağıdakı linkə daxil olmaq lazımdır: https://www.baku2017.com/az/p/media-akkreditasiyasi




## ZORXANA İDMANI HAQQINDA NƏ BİLİRİK?

***Bu il mayın 12-22-də Bakının ev sahibliyi edəcəyi IV İslam Həmrəyliyi Oyunlarının proqramına daxil edilən idman növlərindən biri də zorxanadır.***

Zorxana yarışları üç gün ərzində "Baku Crystal Hall"da keçiriləcək. Yarışlar kişilərdən ibarət komandaların və idmançıların fərdi mübarizəsindən ibarət olacaq.

Bəs zorxana idmanı haqqında nə bilirik? Zorxana iki sözdən ibarətdir: "zor" güc və ya qüvvət, "xana" isə ev mənasını verir. Beləliklə, zorxana güc, qüvvət evi deməkdir. Zorxana İranın ənənəvi "pəhləvan məktəbi"dir.

İyirminci əsrin ortalarınadək zorxana anlayışı bilavasitə güləşlə əlaqələndirilirdi. Döyüş və müharibə ilə bağlı olan bu idman növündə fiziki hərəkətlər pəhləvanların dözümlülüyünü, diqqətliliyini, çevikliyini və sürətlərini artırmaq məqsədi daşıyır.

Zorxana pəhləvanı vətəni və xalqı qarşısında borcunu yerinə yetirməli, böyüklərə hörmət etməlidir. Bu idmançılar döyüş zamanı mil, səngi, qalxan, kaman və zəncir kimi müxtəlif zorxana alətlərindən istifadə edirlər.

## YUNAN-ROMA GÜLƏŞİ ÜZRƏ AZƏRBAYCAN MİLLİSİ DÜNYA KUBOKU YARIŞLARININ GÜMÜŞ MEDALINA SAHİB OLUB

***İran İslam Respublikasının Abadan şəhərində yunan-Roma güləşi üzrə böyüklər arasında dünya kuboku yarışları keçirilib.***




Yığma komandamız Türkiyə, Belarus və Ukrayna idmançıları ilə "B" yarımqrupunda mübarizə aparıb.

Qrupda keçirilən görüşlərdə güləşçilərimiz ardıcıl olaraq Türkiyə, Belarus və Ukrayna yığmaları üzərində 5:3 hesablı qələbə qazanıb və qrup birincisi kimi finala yüksəliblər.




Finalda güləşçilərimiz digər yarımqrupun birincisi Rusiya yığma komandası ilə qarşılaşıblar. Gərgin idman mübarizəsi şəraitində keçən görüş 5:3 hesabı ilə rəqib komandanın xeyrinə başa çatıb. Yığmamız dünya kubokunun gümüş medallarına yiyələnib.

Xatırladaq ki, 2015-ci ildə keçirilən analoji yarışda komandamız dünya kubokunun sahibi olub.

## NİCAT ABBASOV ŞAHMAT ÜZRƏ AZƏRBAYCAN ÇEMPİONUDUR

***Kişi şahmatçılar arasında Azərbaycan çempionatında 9 mümkün xaldan 7,5 xalq toplayan qrossmeyster Nicat Abbasov qalib gəlib.***



Turnirdə 24 şahmatçı, o cümlədən FIDE-nin beynəlxalq adlarının sahibləri olan 17 şahmatçı iştirak edib.

İkinci yeri 7 xalla beynəlxalq dərəcəli usta Misrəddin İsgəndərov, üçüncü yeri 6 xalla Vüqar Rəsulov tutublar.

### ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dövlət Dəniz Akademiyasının rektorluğu, professor-müəllim heyəti və həmkarlar ittifaqı təşkilatı Akademiyanın "Gəmi energetik qurğuları və gəmiqayırma" kafedrasının müdiri, dosent Akif İsmayılova anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.







BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 860